RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 162 (8755) CÜMƏ, 6 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan daha bir beynəlxalq reytinqdə liderdir

Məlum həqiqətdir ki, müharibələr ölkələri fəlakətə sürükləyir, onları ən ağır mənəvi və iqtisadi itkilərin məngənəsində boğur. Azərbaycanın ərazilərinin 30 il işğal altında qalması xalqımız üçün hər cəhətdən böyük itkilərə səbəb olmuşdur. Həmin müddət ərzində dağıdılan şəhər və kəndlərin, talan edilən iqtisadiyyatın, məhv edilən infrastrukturun, yerlə yeksan edilən abidələrin dəyəri milyardlarla ölçülür.

Ərazisi o qədər də böyük olmayan Azərbaycan üçün bu itkilər əslində ən ağır fəlakətlərlə nəticələnə bilərdi və ölkəmiz birdəfəlik dibi görünməyən uçurumlara yuvarlanardı, əgər 44 günlük Vətən savaşında biz bu işğala son qoymasaydıq. Bəli, Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz cəmi 44 günlük Vətən müharibəsində düşməni darmadağın edərək Qarabağdan işğalçıları iti qovan kimi qovdu. 30 ilə yaxın mifik qələbəsi ilə lovğalanmaqdan köynəyinə sığmayan işğalçı Ermənistan isə acınacaqlı vəziyyətə düşdü. Və həmin vəziyyət günü bu gün də onu qarabaqara izləyir.

Halbuki 1992-ci ildən üzübəri erməni liderləri dünyaya qalib duruşlarının striptizlərini yapmaqdan sonsuz zövq alırdılar. Hamımız Petrosyanın, Köçəryanın, Sarkisyanın idbar "qalib" makiyajını yaxşı xatırlayırıq. 44 günlük müharibə isə erməni siyasi elitasının bu qondarma "qürur"unun bəzəyini atdı, onun bütün çalarlarını və əsl cizgilərini göstərdi. Ermənistan məğlub edildikdən sonra bu ölkədə həşərat kimi qaynayan siyasi partiyalar indiyəcən bir-birini qırır, ittiham edir, bütün dünyaya iqtisadi kollabsa düşdüklərini, nə qədər gülünc görünsə də, guya işğala məruz qaldıqlarını car çəkir, arsızcasına əl açaraq humanitar və hərbi yardım dilənirlər.

Ən qəribəsi odur ki, erməni faşizminə hələ də sığal verib züy tutanlar tapılır. Beləleri erməni faşizmini qınamır, onun erməni xalqını hansı fəlakətlərə mübtəla etdiyini dilə gətirmir, əksinə, "zavallı tifil"lərə əmzik verib dizlərini yerdən qaldırmaq üçün milyardlar ayırırlar. Lakin faşist ideologiyasının əsarətinə düşən, özlərini hamıdan ali, müdrik və qədim saymaqla yolunu azan bu dövlətə və ən başlıcası, erməni xalqına belə yardımlardan daha çox həqiqəti dərk etmələri, faşist idelogiyasından birdəfəlik üz döndərmələri lazımdır. Yalnız bu yolla "erməni xəstəliyi"ndən xilas olmaq mümkündür.

Ermənistanın tənəzzülü ilə Azərbaycanın intibahı arasından möhtəşəm mənəvi bir sədd keçir. Bu sədd iqtidar-xalq birliyi ilə hörülərək bizim vətən, torpaq və bayraq sevgimizlə ucalıb. 44 günlük savaşda ən böyük tarixi qələbəmiz düşməni məğlub etməyimizlə yanaşı, bir-birimizə bağlanmağımız, yumruq kimi birləşməyimiz, iqtidarın və xalqın vəhdətindən yaranan möhtəşəm gücə nail olmağımızdır. Bu birlik bizə inamla irəli, yeni iqtisadi uğurlara sarı addımlamağa imkan verir.

*Ardı 6-cı səh.*

## Prezidentlər Azərbaycan-Fransa ikitərəfli əlaqələrinin müxtəlif sahələrinə aid məsələləri müzakirə ediblər

Avqustun 5-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı dövlət başçıları 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə regional məsələlər və Bəyanatın müddəalarının həyata keçirilməsi, Ermənistan-Azərbaycan dövlət sərhədindəki vəziyyət və postmünaqişə dövründə regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıblar.

Dövlət başçıları söhbət əsnasında Azərbaycan-Fransa ikitərəfli əlaqələrinin müxtəlif sahələrinə aid məsələləri də müzakirə ediblər.

***Prezidentin Mətbuat xidməti***

## Azərbaycan hər zaman Türkiyənin yanındadır

Türkiyədə baş verən şiddətli meşə yanğınları ötən günlərdə ekoloji fəlakətə çevrilməklə təbiətə və insanlara böyük zərər vurub.

Qardaş ölkədə yaşananlar Azərbaycanda da narahatlıqla izlənməkdədir. Hər zaman bir-birinin yanında olan Azərbaycan və Türkiyə yanğınlarla mübarizədə də birlikdədirlər.

Milli Məclisin deputatlarının açıqlamaları da bu barədədir.

*Ardı 3-cü səh.*

## Söz və fikir azadlığı cəmiyyətimizin demokratik inkişafına xidmət edir

### KİV üzərində senzuranın aradan qaldırılmasından 23 il ötür

Azərbaycanda söz, fikir və mətbuat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti və inkişafı üçün münbit şəraitin yaradılması, bu sahədə bütün maneələrin aradan qaldırılması ilə təşəbbüslər demokratikləşmə istiqamətində ilk addımların atıldığı illərə təsadüf edir.

Bəli, yalnız Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istək və tələbi ilə hakimiyyətə qayıdışından sonra söz və fikir azadlığı üçün münbit zəmin formalaşmağa başladı, kütləvi informasiya vasitələri buxovlardan xilas oldular.

Azərbaycan xalqı 1991-ci ildə dövlət müstəqilliyinə nail olaraq demokratik inkişaf yolunu seçdi.

*Ardı 5-ci səh.*

## Koronavirus bizdən güclü olmamalıdır

### Birlikdə olaq ki, qalib gələk

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son günlər verdiyi xəbərlər ürəkaçan deyil. Bir ildən çoxdur ki, dünyada durmadan yayılmaqda olan koronavirusa yoluxma və ölüm halları artıb. Vəziyyət regionda və qonşu ölkələrdə də mürəkkəbdir. Gürcüstanda koronavirusa 4 mindən çox yeni yoluxma halı qeydə alınıb. Hər gün bu ölkədə onlarla insan xəstəlik səbəbindən dünyasını dəyişir.

Türkiyədən gələn xəbərlərdən məlumdur ki, bu ölkədə də COVID-19-a yoluxma və ölüm sayı artmaqdadır. Rusiyaya gəldikdə isə, koronavirusla bağlı vəziyyət kifayət qədər gərgindir. Pandemiya başlayandan Rusiyada 6 milyondan çox yoluxma halı aşkarlanıb. Bu ölkədə xəstəlik hər gün yüzlərlə insanın həyatına son qoyur. Pandemiya dövründə Rusiyada ümumilikdə 160 mindən çox insan COVID-19 səbəbindən vəfat edib.

*Ardı 5-ci səh.*

## Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 1,1 milyon (bir milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2021-ci il*




## Güləşdə daha 3 medal şansı



Azərbaycanın qadın güləşçisi Mariya Stadnik, sərbəst güləşçilər Hacı Əliyev və Şərif Şərifovun "Tokio-2020"də ilk rəqibləri məlum olub. Hər üç pəhləvan mübarizəyə bu gün səhər tezdən 1/8 final mərhələsindən başlayıb.

50 kq çəki dərəcəsində çıxış edən M.Stadnik və 97 kq çəkidəki Ş.Şərifov Rusiya Olimpiya Komitəsinin təmsilçiləri - müvafiq olaraq, Stalvira Orşuş və Abdulrəşid Sadullayevlə üz-üzə gəliblər.

65 kq-da mübarizə aparan H.Əliyev isə seneqallı Adama Diatta ilə görüşüb.

*Bax: səh. 7*

# Milli Məclisin Sədri Sahibə Qafarova İranda səfərdədir



Avqustun 5-də Milli Məclisin Sədri Sahibə Qafarova İran İslam Respublikasının yeni seçilmiş Prezidenti İbrahim Rəisinin andiçmə mərasimində iştirak etmək üçün bu ölkəyə səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Tehranın Mehrabad Hava Limanında Milli Məclis Sədrinin başçılıq etdiyi nümayəndə heyətini İslam Şurası Məclisinin sədr müavini Mütəfəkkir Azad, Azərbaycanın bu ölkədəki səfiri Bünyad Hüseynov qarşılayıblar.

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər daxildir.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın İranın bir sıra rəsmi şəxsləri ilə görüşləri də nəzərdə tutulub.



# Milli Məclisin Sədri İran Prezidentinin andiçmə mərasimində iştirak edib





Avqustun 5-də İran İslam Şurası Məclisində (parlamentdə) yeni seçilən Prezident İbrahim Rəisinin andiçmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə İran İslam Şurası Məclisinin binasında keçirilən mərasimə 73 ölkədən 115 rəsmi şəxs, o cümlədən 10-a yaxın ölkənin prezidenti, 20 ölkənin parlament sədri, 11 xarici işlər naziri, həmçinin Avropa İttifaqının, BMT-nin, İqtisadi Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların təmsilçiləri qatılıblar.

Azərbaycanı mərasimdə Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə nümayəndə heyəti təmsil edib.

Nümayəndə heyətinə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər daxildir.

İran parlamentinin sədri Məhəmməd Qalibaf mərasimdə çıxış edərək iyunun 18-də keçirilən prezident seçkilərində İran xalqının iradəsinin ifadə olunduğunu bildirib. Diqqətə çatdırıb ki, İranın tarixində yeni səhifə açılır. Ölkənin inkişafı üçün bütün dövlət qurumları daha da səmərəli çalışmalıdırlar. Lakin bu işdə əsas yük Prezident İbrahim Rəisinin rəhbərlik edəcəyi hökumətin üzərinə düşəcək.

İranın Ali Məhkəməsinin rəhbəri Möhsün Eniji çıxışında seçkilərin qanunauyğun və demokratik şəraitdə keçirildiyini bildirib.

Prezident İbrahim Rəisi müqəddəs "Qurani-Kərim"ə and içərək xalqa ləyaqətlə xidmət edəcəyini vurğulayıb. Yeni Prezident ölkəsinin iqtisadi inkişafı üçün səylə çalışacağını və korrupsiyaya qarşı kəskin mübarizə aparacağını da diqqətə çatdırıb. Qeyd edib ki, İranın böyük iqtisadi potensialı var və bu potensialdan səmərəli istifadə olunmalı, idarəetmə müasir tələblərə cavab verməlidir.

Ölkəsinin xarici siyasətindən danışan yeni Prezident İranın heç zaman münaqişə yaratmaq niyyətində olmadığını, dünya dövlətləri ilə bərabərhüquqlu əməkdaşlıq əlaqələri qurmaq istədiyini bəyan edib.

# "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yeni tərkibdə ilk iclası keçirilib



Avqustun 5-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovun sədrliyi ilə "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yeni tərkibdə ilk iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyul tarixli 2796 nömrəli Sərəncamı ilə yeni tərkibdə təsdiq edilmiş Komissiyanın fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, Azərbaycan Respublikasının müvafiq Konvensiyanın müddəalarının yerinə yetirilməsinə dair gördüyü işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Komissiyanın iclasında prioritet istiqamətlər üzrə təkliflərin hazırlanması ilə əlaqədar tapşırıqlar verilib, həmçinin Ermənistan tərəfindən işğal edilmiş və azad olunmuş ərazilərdə dağıdılmış mədəni abidələrin vəziyyəti ilə bağlı beynəlxalq təşkilatların məlumatlandırılması istiqamətində aparılan işlərin zəruriliyi komissiya üzvlərinin diqqətinə çatdırılıb.

İclasda irəli sürülmüş təkliflərə dair komissiya üzvləri tərəfindən müzakirələr aparılıb. İclasın yekunu olaraq komissiyanın fəaliyyətinin təmin edilməsi məqsədilə aidiyyəti qurumların nümayəndələrindən və sahə üzrə ekspertlərdən ibarət İşçi Qrupun yaradılması, həmçinin müvafiq Tədbirlər Planının hazırlanması istiqamətində tədbirlər görülməsi qərara alınıb.

# Quru Qoşunları Komandanlığının bir neçə hərbi obyekti istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və qoşun xidmətinin təşkili üzrə tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Prezidentinin Quru Qoşunları Komandanlığının yaradılması haqqında müvafiq sərəncamının icrası məqsədilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Komandanlığın yeni istifadəyə verilmiş bir neçə hərbi obyektində olub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan büstü önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi dərin ehtiramla yad edilib.

Müdafiə naziri Quru Qoşunları Komandanlığının qərargah binasına baxış keçirib. Məruzə olunub ki, qərargahda müasir ümumqoşun döyüşü şəraitində hərbi əməliyyatların və qoşunların avtomatlaşdırılmış idarəetmə sistemləri üçün nəzərdə tutulmuş məntəqələr, həmçinin sinif və xidməti otaqlar fəaliyyət göstərir.

Sonra müdafiə naziri komandanlığın tərkibindəki idarələrin inzibati binalarında, həmçinin əsgər yataqxanası və atış şəhərciyində yaradılan şəraitlə tanış olub.

General-polkovnik Z.Həsənov hərbi hissələrin şəxsi heyətinin sosial-məişət və xidmət şəraitinin daha da yaxşılaşdırılması üzrə müvafiq tapşırıqlar verib.

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasındadır











Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən avqustun 5-də Naxçıvan Muxtar Respublikasına işgüzar səfər edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzərək əziz xatirəsini ehtiramla anıblar.

Sonra Heydər Əliyev Muzeyini ziyarət edən nümayəndə heyətinə muzey barədə ətraflı məlumat verilib. Qonaqlar muzeydə dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, firavan gələcəyi naminə siyasi fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla tanış olublar.

Baş prokurorun rəhbərlik etdiyi heyət həmçinin Ulu Öndərin adını daşıyan tam orta məktəb və hərbi liseydə də olublar.

Daha sonra Bəhruz Kəngərli muzeyini ziyarət edən qonaqlara Azərbaycan rəssamlıq sənətinin ən görkəmli nümunələrindən olan əsərlər barədə ətraflı məlumat verilib.

* * *

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, eləcə də Sədərək Rayon Prokurorluğunda yaradılmış şəraitlə tanış olub, əməkdaşlarla görüş keçirib.

Xidməti vəzifələrini nümunəvi icra edərək səmərəli fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlərə görə bir qrup əməkdaş "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunların tələblərinə uyğun olaraq, "Prokurorluğun fəxri işçisi" döş nişanı, "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı" ilə təltif edilib, qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

* * *

Səfər çərçivəsində nümayəndə heyəti sərhəd bölgəsində Sədərək rayonunda yerləşən hərbi hissədə olub.

Sonra müdafiənin ön xəttindəki mövcud vəziyyətlə tanışlıq olub, döyüş növbəsi çəkən əsgər və zabitlərlə görüş keçirilib.

Görüş zamanı əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, qazilərə şəfa dilənib.

Baş prokuror Kamran Əliyev Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş hərbi-siyasi Zəfər münasibətilə şəxsi heyəti təbrik edib, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Qələbənin əldə olunmasındakı rolunu vurğulayıb.

Sonra bir qrup hərbçiyə xidmətdə fərqləndiklərinə görə qiymətli hədiyyələr təqdim olunub.

Baş prokuror Kamran Əliyevə sərhəd bölgəsindəki zirehli texnikaların döyüşə hazırlıq vəziyyəti, imkanları və effektiv istifadəsi, döyüş növbəsinin yüksək səviyyədə təşkili ilə bağlı ətraflı məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikasına səfər edən Baş Prokuror Kamran Əliyevlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov arasında görüş keçirilib.

Görüş zamanı Baş prokuror tərəfindən Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğuna bundan sonra da diqqət və qayğının göstəriləcəyi vurğulanıb.

Bununla da Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfəri başa çatıb.

# *Müdafiə Nazirliyi:* "Mövqelərimiz Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub"

Avqustun 4-ü saat 14:50-dən 00:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən, Basarkeçər rayonunun Yuxarı Şorca, Əzizli, Şişqaya və Qaraiman, Çəmbərək rayonunun Ardanış yaşayış məntəqələrində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Sədərək rayonunun Heydərabad, Gədəbəy rayonunun Novoivanovka və Qalakənd, Kəlbəcər rayonunun İstisu və Yellicə, Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Sarsılmaz qardaşlıq və həmrəylik nümunəsi

## Azərbaycanın və Türkiyənin XİN rəhbərləri meşə yanğınları ilə bağlı vəziyyəti müzakirə ediblər

Avqustun 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Türkiyədəki meşə yanğınları ilə bağlı son vəziyyət, yanğınların söndürülməsi və geniş ərazilərə yayılmasının qarşısının alınması əməliyyatları, azərbaycanlı yanğınsöndürənlərin bu əməliyyatlarda iştirakı məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Mövlud Çavuşoğlu Azərbaycan tərəfinin meşə yanğınlarının söndürülməsində Türkiyəyə yardımına görə minnətdarlıq ifadə edib.

Ceyhun Bayramov Azərbaycanın hər zaman qardaş Türkiyənin yanında olduğunu və bu çətin günlərdə Türkiyəyə hər cür yardımı göstərməyə hazır olduğumuzu bir daha vurğulayıb.

## Azərbaycan və Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi



Ötən il Vətən müharibəsindəki Zəfər həm də Azərbaycanla Türkiyə arasındakı qardaşlığı, birliyi bir daha bütün dünyaya nümayiş etdirdi. Bu savaş həm də Azərbaycanın dost və qardaş ölkələrlə münasibətlərini yeni keyfiyyət mərhələsinə yüksəltdi. Azərbaycan və Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı və 200-dən çox gəncin iştirakı ilə iyulun 26-dan avqustun 1-dək Naxçıvan Muxtar Respublikasında keçirilən "Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi"nin də məqsədi Vətən müharibəsindəki Qələbənin, iki qardaş dövlət arasındakı birliyin, ortaq mədəniyyətin gənclər arasında geniş şəkildə təbliğ olunması idi.

Bu məsələ ilə bağlı qəzetimizə açıqlama verən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, Milli Məclisin deputatı, Cəbi Quliyev bildirdi ki, Naxçıvanda keçirilən "Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi" iki ölkənin gənclərinin Azərbaycan-Türkiyə qardaşlığına və Vətən müharibəsindəki qələbəyə həsr olunan ilk layihə oldu: "İstər tarixi qələbə ilə bitən 44 günlük Vətən müharibəsindən əvvəl, istər döyüşlərin getdiyi vaxt, istərsə də sonrakı mərhələdə qardaş Türkiyə dövləti və xalqı Azərbaycanın haqq səsinə səs verib. Bu günlərdə keçirilən və uğurla başa çatan Zəfər düşərgəsi də qazanılan qələbəyə həsr olunmuşdu və hər iki ölkənin gənclərinin birliyinin, bərabərliyinin bir daha əyani nümayişi idi".

Cəbi Quliyevin sözlərin görə, iyulun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Zəfər düşərgəsində iştirak etmək üçün muxtar respublikada səfərdə olan Türkiyə Gənclik Vəqfinin nümayəndə heyəti ilə görüşüb: "Ali Məclisin Sədri Vasif Talıbov ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinə və Naxçıvanın türk dünyası üçün əhəmiyyətinə diqqəti çəkib, "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi"nin muxtar respublikada təşkilinə görə təşəkkürünü bildirib. Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında gənclərlə işin prioritet sahələrdən biri olduğunu vurğulayan Ali Məclisin Sədri bu istiqamətdə görülən işlərdən bəhs edib. Qeyd edib ki, Naxçıvanda gənclərin təhsilli və sağlam böyüməsi diqqətdə saxlanılır, onlar dövlət quruculuğu işində fəal iştirak edirlər.

Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu Zirvə görüşünün və Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirildiyini xatırladan Ali Məclisin Sədri "Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi"nin də gənclər arasında qarşılıqlı əlaqələrin qurulması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb".

Elə həmin gün "Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi"nə start verilib. Gənclər əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, Heydər Əliyev Muzeyini ziyarət edib, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidəsinin önünə gül dəstələri qoyublar.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey kompleksləri ilə tanışlıqdan sonra Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi"nin açılış mərasimi olub. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Türkiyə Gənclik Vəqfinin baş direktoru Enes Eminoğlu və Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Zəfər düşərgəsinin önəmindən danışıblar. Bu barədə danışan Cəbi Quliyev dedi: "Çıxışlarda qeyd olundu ki, Türkiyə Gənclik Vəqfinin nümayəndələrinin budəfəki səfərinin hər iki qardaş ölkəni daha da yaxınlaşdıran, geostrateji məkan sayılan Naxçıvan Muxtar Respublikasına olması, burada Zəfər düşərgəsinin təşkili çox önəmlidir. Diqqətə çatdırıldı ki, bu düşərgənin türk dünyasının qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda təşkili heç də təsadüfi deyil. Çünki məhz muxtar respublika iki qardaş ölkəni, Azərbaycan və Türkiyəni ən yaxın, 11 kilometrlik bir məsafə ilə birləşdirir. Həm də bu yurd ulu türk sivilizasiyasının beşiyidir. Qədim diyarda təşkil olunan beynəlxalq Zəfər düşərgəsi çərçivəsində hər iki ölkənin gəncləri bir-biri ilə daha da sıx münasibət yaradacaq, tariximizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi daha dərindən öyrənəcəklər".

Zəfər düşərgəsinin ilk günü rəngarəng konsert proqramı ilə başa çatıb. Düşərgənin ikinci günü qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar. Daha sonra "Duzdağ" hoteldə düşərgə iştirakçılarının İkinci Qarabağ müharibəsinin qaziləri ilə görüşü keçirilib. Cəbi Quliyevin sözlərinə görə, 44 günlük Vətən müharibəsində şücaət göstərmiş qazilərimizlə görüşün məqsədi gənclərimizə örnək olan qəhrəman müharibə iştirakçılarımızın timsalında gəncliyə əsl vətənpərvərlik ideologiyasını aşılamaq idi.

Cəbi Quliyev dedi ki, sonrakı günlərdə proqram çərçivəsində maraqlı tədbirlər keçirilib: "Gənclər Şahbuz rayonunun ərazisində yerləşən Batabat yaylağında olublar. Zəfər düşərgəsinin iştirakçıları Ordubad şəhərinə də səfər edərək Tarix-Diyarşünaslıq Muzeyi, Yusif Məmmədəliyev, Məhəmməd Tağı Sidqi və Məmməd Səid Ordubadinin ev-muzeyləri ilə tanış olublar. Daha sonra "Duzdağ" hoteldə düşərgə iştirakçılarına Azərbaycan tarixi və mədəniyyətinə dair təlim keçirilib. "Saat Meydanı" turistik istirahət mərkəzində də Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş yubiley və "Yunus Əmrə-700" tədbirləri təşkil olunub. Düşərgə iştirakçıları "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini də ziyarət ediblər. Gənclər Türkiyə tarixi və mədəniyyətinə dair təlimdən də yüksək təəssüratla ayrılıblar.

Zəfər düşərgəsinin son günündə iştirakçılar xalqımızın mərdlik, yenilməzlik, mübarizlik rəmzi olan Əlincə qalasını ziyarət ediblər. Həmin gün gənclərin üz tutduğu digər ziyarətgah isə Şəhidlər xiyabanı olub. Günün ikinci yarısında isə onlar Naxçıvan Dövlət Universiteti ilə tanış olublar.

"Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər Düşərgəsi" "Duzdağ" hoteldə keçirilən bağlanış mərasimi ilə yekunlaşdı. Düşərgə iştirakçıları Azərbaycan və Türkiyə respublikalarının dövlət himnlərini oxuyub, sonra düşərgə ilə bağlı təəssüratlarını bölüşüblər".

Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmləndirilməsi və ölkə gəncləri arasında sıx əməkdaşlığın yaranması məqsədilə təşkil olunmuş belə tədbirlər hər bir gənc üçün qürurvericidir. Bu barədə danışan Cəbi Quliyevin sözlərinə görə, Zəfər düşərgəsi Azərbaycan və Türkiyə gəncləri arasında sarsılmaz qardaşlığı daha da möhkəmləndirəcək, iki qardaş ölkənin gənclərinin yaxınlaşmasına, gələcək fəaliyyət perspektivlərini müəyyənləşdirmələrinə yeni imkan yaradacaq. Gələcəkdə belə layihələrin davamlı xarakter alması iki ölkənin ümumi inkişafına böyük töhfə verəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Azərbaycan hər zaman Türkiyənin yanındadır



Əvvəli 1-ci səh.

### Təbiətin bu sınağı bizi bir daha birləşdirdi

**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın vitse-prezidenti,*
*Milli Məclisin deputatı:*

- Türkiyənin zəngin təbiəti, təbii gözəllikləri, nadir meşə sərvətləri, heyvanlar aləmi od tutub yanır. Bu bizim də qəlbimizi ağrıdır. Azərbaycan xalqı Türkiyə vətəndaşları qədər bu böyük fəlakəti ürəkağrısı ilə qarşılayır. Bütün varlığımızla Türkiyədəki qardaş və bacılarımızın yanındayıq.

Azərbaycan dövləti qardaş Türkiyənin bu böyük bəladan xilas olması üçün imkanlarından da artıq qüvvə sərf edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana məktubu on milyonluq xalqımızın hər bir vətəndaşının ürək sözlərinin, narahatlıq və həyəcanlarının ifadəsidir. İndi Azərbaycanda bu fəlakətdən narahat olmayan, acı təəssüf hissi və həyəcan keçirməyən vətəndaş yoxdur. Qarabağ müharibəsində olduğu kimi, bu gün də Azərbaycan - Türkiyə, Türkiyə - Azərbaycandır. Təbiətin bu arzuedilməz sınağı Azərbaycanla Türkiyəni bir daha qardaşlaşdırır, birləşdirir. Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamı özünün varlığını nümayiş etdirir. Türkiyənin meşə yanğınlarından xilas olması, bu böyük fəlakətin aradan qaldırılması Azərbaycan üçün də böyük sınaq və məsuliyyətli bir vəzifədir.

İnanırıq ki, Türkiyəni bürüyən alov tezliklə söndürüləcək, qardaş türk xalqının başının üstündən duman çəkiləcəkdir. Bu dəhşətli fəlakəti törədən qatillər, namərdlər və xainlər cəzalarına çatacaqlar.

Qardaş Türkiyə Azərbaycanla birlikdə bu ağır sınaqdan da çıxacaqdır!

Hər an yanındayıq, Türkiyə!

### Dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının şahidi olur

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü:*

- Artıq neçə gündür ki, qardaş Türkiyənin bir sıra vilayətlərində tüğyan edən meşə yanğınları Azərbaycanda da haqlı olaraq narahatlıqla qarşılanmaqdadır. Təsadüfi deyil ki, yanğına həssas münasibət ortaya qoyan və söndürülməsində Türkiyəyə kömək etməyə tələsən ilk ölkə Azərbaycan oldu.

İyulun 30-da cənab Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda şiddətli yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verməsi, Azərbaycan hökuməti və xalqının hər zaman olduğu kimi bu gün də qardaş Türkiyə xalqı ilə həmrəy və onun yanında olmasını bildirməsi qardaşlığın ifadəsi idi.

Prezident İlham Əliyevin tapşırığına əsasən, baş verən meşə yanğınları ilə mübarizə aparmaq üçün Azərbaycan Fövqəladə Hallar Nazirliyinin yanğın, xilasetmə, aviasiya və tibb xidməti əməkdaşları artıq bir neçə gündür ki, qardaş ölkədədirlər. Meşə yanğınlarının geniş vüsət aldığı bölgələrdə peşəkarlıqla fəaliyyət göstərən yanğınsöndürənlərimizin səyi ilə bir çox istiqamətlərdə meşə yanğınlarının genişlənməsinin qarşısı alınır. Havanın yüksək temperaturunun hökm sürdüyü mürəkkəb relyefli dağlıq ərazidə yanğınsöndürənlərimiz mətinliklə mübarizə aparırlar.

Ötən il Azərbaycanın Qələbəsi ilə başa çatan Vətən müharibəsində olduğu kimi, bu gün hər iki dövlətin və onların xalqlarının nəbzi bir vurur. 44 gün davam edən savaş günlərində xalqımız kimi Türkiyə ictimaiyyəti də Qələbəyə köklənmişdi. Müharibə günlərinin ən möhtəşəm mənzərələrindən biri hər yerdə Azərbaycanla yanaşı, Türkiyə bayraqlarının dalğalanması idi. Binaların eyvanlarını, avtomobilləri, ümumiyyətlə, hər yeri ayulduzlu bayraqlar bəzəmişdi. Bu müharibədə Azərbaycan-Türkiyə münasibətləri bir daha tarixi sınaqdan çıxdı. Bu müharibə qardaşlığımızı daha da möhkəmləndirdi, sarsılmaz etdi. Türk dünyasının öndərləri olan Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları bir daha öz təsdiqini tapdı.

Azərbaycan torpaqlarının işğaldan azad edilməsində olduğu kimi, Türkiyənin dağlıq və turizm bölgələrində yayılan meşə yanğınlarının söndürülməsi zamanı da bütün dünya polad kimi möhkəm birliyimizin və qardaşlığımızın şahidi oldu. Sosial şəbəkələrdə, Türkiyə KİV-in reportajlarında Azərbaycan yanğınsöndürənlərinin qardaş ölkəyə gəlişi ilə, yanğınların söndürülməsində göstərdikləri fədakarlıqlarla bağlı yayılan görüntülər hər birimizi qürurlandırır. Bu günlərdə Türkiyə ictimaiyyəti dost və qardaş Azərbaycanın dəstəyindən danışır, yanğınsöndürənlərimizin qəhrəmanlıqları ilə fəxr edir.

Əlbəttə, Azərbaycanın qardaş Türkiyəyə göstərdiyi yüksək dəstəyin təməlində həm də ölkəmizdə fövqəladə hallara hazırlıq sahəsində görülən yüksək işlər dayanır. Fövqəladə hallara qarşı daha səmərəli mübarizə, ölkəmizin, vətəndaşlarımızın və ətraf mühitin təhlükəsizliyinin təminatı Prezident İlham Əliyevin inkişaf siyasətinin əsas leytmotivlərindən biridir. Bu siyasətin nəticəsi kimi fövqəladə hallar orqanları ötən illərdə böyük inkişaf yolu keçib, maddi-texniki bazası möhkəmləndirilib, qurumların və əməkdaşların peşəkarlığı yüksəldilib. Bu gün Azərbaycanın qardaş Türkiyəyə yanğınların söndürülməsi ilə bağlı göstərdiyi dəstəyin kökündə də respublikamızda bu sahədə mükəmməl maddi-texniki imkanların olması dayanır.

Əminik ki, qardaş Türkiyədə baş verən yanğınların qarşısı böyük itkilər olmadan tezliklə alınacaq və yanğınsöndürənlərimiz Vətənə şərəflə dönəcəklər. Bu hadisə Azərbaycan - Türkiyə birliyinin növbəti təcəssümü kimi tarixə həkk olunacaq.

### Səmimi, sarsılmaz və əbədi qardaşlıq

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Təməlində dostluq və qardaşlıq münasibətləri, xalqların birliyi dayanan Azərbaycan-Türkiyə əlaqələrinin dünya miqyasında analoqunu tapmaq mümkün deyil. Bu əlaqələr zaman-zaman tarixi sınaqlardan layiqincə çıxaraq möhkəmlənib.

Belə sınaqlardan biri ötən il torpaqlarımızın azadlığı ilə nəticələnən Vətən müharibəsi oldu. Müharibənin ilk günündən Türkiyə Azərbaycana açıq şəkildə və qətiyyətlə dəstək verdi, respublikamızın mövqeyini sona qədər müdafiə edəcəyini bildirdi. Türkiyə rəhbərliyinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu. Ermənistanın təəssübünü çəkən siyasi dairələr gördülər ki, Azərbaycan tək deyil.

*"Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq. İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı",* - deyə Prezident İlham Əliyev bildirdi.

İyul ayının sonlarından isə Türkiyə dövləti ekoloji terrorla üz-üzə qalıb. Ölkənin bir sıra vilayətlərində baş verən yanğınlar təbiətə və əhaliyə böyük zərər vurub. Qardaş ölkədəki yanğın fəlakətinə Azərbaycan cəmiyyətinin göstərdiyi həssas münasibət isə təbiidir. Başqa cür ola da bilməzdi, Türkiyənin sevincini bölüşdüyümüz kimi, kədəri də bizim kədərimizdir.

Qardaş ölkədə baş verən yanğına ilk həssas münasibət bildirən Prezident İlham Əliyev oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktubunda Prezident İlham Əliyev bildirdi ki, qardaş ölkənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları və onların törətdiyi fəsadlar barədə xəbər bizi son dərəcə kədərləndirir. Dövlət başçısı məktubunda Azərbaycan hökuməti və xalqının hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu bəyan etdi. Birinci vitse-prezident Mehriban Əliyeva da rəsmi "Instagram" səhifəsində qardaş Türkiyədə baş verən yanğınlar nəticəsində həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verdi.

Təsadüfi deyil ki, Türkiyəyə kömək üçün yardım əlini ilk uzadan ölkə də qardaş Azərbaycan oldu. Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-dan Türkiyədədir. Daha sonra yola düşən ikinc qrup da artıq Türkiyədə yanğınsöndürmə əməliyyatlarına qoşulub. Bu qrupa 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxildir. Dünən isə respublikamızın yanğın-xilasetmə qüvvələrinin 3-cü qrupu Türkiyə Respublikasına yola düşdü.

Bütün bunlar həm də onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi olaraq ölkəmizdə yanğınların, ümumiyyətlə ekstremal halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində mükəmməl maddi-texniki baza yaradılıb. Digər ölkələrlə müqayisədə Azərbaycanda yanğın risklərinin aşağı olmasına baxmayaraq, respublikamızın belə bir potensiala sahib olması hər birimizdə qürur hissi doğurur.

Ötən günlərdə respublikamızın yanğınsöndürənləri öz missiyalarını peşəkarlıqla həyata keçiriblər. Yanğınların ciddi vüsət aldığı bölgələrdə yanğınsöndürənlərimizin səyi ilə bir çox istiqamətlərdə meşə yanğınlarının genişlənməsinin qarşısı alınıb. Havaların kəskin isti keçməsi və küləyin istiqamətinin dəyişkən olması vəziyyəti daha da çətinləşdirir. Bəzi hallarda söndürülmüş ərazilərdə alovun yenidən qalxması ciddi risklər yaradır. Bunlara baxmayaraq, yanğınsöndürənlərimiz öz vəzifələrinin öhdəsindən uğurla gəlir, yanğının irəliləməsinin qarşısını inamla alırlar.

Onu da qeyd edim ki, Azərbaycanın dəstəyi, Türkiyənin bu çətin günlərində yanğınsöndürənlərimizin köməyə gəlməsi bütün qardaş ölkədə böyükdən kiçiyə hər kəs tərəfindən təqdir olunur. Hər kəs başda Prezident İlham Əliyev olmaqla xalqımıza təşəkkür edir, yanğınsöndürənlərimizin qəhrəmanlıqlarından danışır. Türkiyədə baş verən meşə yanğınları fonunda öz təsdiqini tapan bəlli həqiqətlərdən biri Azərbaycan-Türkiyə qardaşlığı oldu. Eyni zamanda bir daha bütün dünyaya aydın oldu ki, bu qardaşlıq səmimi, sarsılmaz və əbədidir.

### Azərbaycanın Türkiyəyə göstərdiyi dəstək yüksək qiymətləndirilir

**Pərvin KƏRİMZADƏ,**
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü:*

- Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə bir-birinin yanındadır. Qardaş Türkiyədə baş vermiş meşə yanğınlarını, bunun nəticəsində yaranmış vəziyyəti Azərbaycan xalqı olaraq böyük narahatlıqla və həyəcanla izləyirik. Təəssüf ki, güclü yanğınlar nəticəsində insan itkisi baş verib, xeyli sayda türk qardaşlarımız evsiz-eşiksiz qalıb, böyük infrastruktur sıradan çıxıb.

Bu çətin günlərdə Azərbaycan qardaş türk xalqının yanındadır. Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq, meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə qardaş Türkiyəyə Azərbaycandan yardım dəstələri göndərilib.

Yanğın xəbərindən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayaraq baş vermiş faciədən dərin kədər hissi keçirdiyini, Azərbaycan hökuməti və xalqının hər zamankı kimi bu gün də qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu vurğulayıb. Eyni zamanda dağıdıcı yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığını ifadə edib. Azərbaycan Prezidentinin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola düşüb. Avqustun 1-də axşam saatlarında isə FHN-in daha bir yanğın-xilasetmə qrupu qardaş ölkəyə getdi. İkinci qrupa bir helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, bir təcili tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxildir. Dünən isə üçüncü qrup Türkiyəyə yola salındı.

Türkiyə KİV-də yayımlanan xəbərlərdə Azərbaycanın Türkiyəyə göstərdiyi qardaş dəstəyi yüksək qiymətləndirilir. Biz sosial media vasitəsilə azərbaycanlı və türkiyəli xilasedicilərin yanğınla necə fədakarlıqla mübarizə apardığının şahidi oluruq. Biz tezliklə bu yanğınların qarşısının alınacağına ümid edirik və bunu arzulayırıq.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları tarixin ən ağır məqamlarında, ən çətin günlərində öz sözünü deyib və yenə də deyir. Bu gün Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan da atdıqları hər addımlarda iki dövlət xalqının ideallarına sadiqdirlər. Xalqımız, cəmiyyətimiz sevincdə də, kədərdə də bir yerdədir. Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları bizi dərindən kədərləndirir. Yanğında həyatını itirən insanlar, canlılar var, yanğın qardaş ölkəyə genişmiqyaslı maddi və mənəvi zərər vurub, hadisənin törətdiyi fəsadlar çoxdur. Yeri gəlmişkən, dünya ölkələri də öz dəstəyini göstərməlidir. Çünki ekologiyanın qorunması bəşəri bir məsələdir.

Türkiyənin regionda və dünyada böyük gücə çevrilməsini həzm edə bilməyən terror təşkilatları və onları himayə edən imperialist qüvvələr bəşəri cinayət törədirlər. Təbiətə qarşı belə bir miqyasda cinayət törətmək insanlığa sığmayan hərəkətlərdir. Bu cür addımlarla Türkiyənin zəifləyəcəyini düşünənlər yanılırlar. Türkiyə güclü dövlətdir və bu sınaqdan da üzüağ çıxacaq.

**R.CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Sarsılmaz qardaşlıq və həmrəylik nümunəsi

## *Füzuli ƏSƏDOV:* "Türkiyədə yanğınların söndürülməsində FHN-in 500-ə yaxın əməkdaşı iştirak edir"



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin yanğın-xilasetmə qüvvələrinin əməkdaşlarından və yanğınsöndürmə texnikasından ibarət iki qrup artıq neçə gündür Türkiyədə mürəkkəb şəraitdə baş verən yanğınların söndürülməsinə cəlb edilib. Dövlət başçısının tapşırığının icrası çərçivəsində bu gün əlavə 40 yanğın texnikası və 160 nəfər şəxsi heyətdən ibarət üçüncü qrup qardaş ölkəyə yola düşür.

AZƏRTAC xəbər verir ki, bunu Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi general-mayor Füzuli Əsədov avqustun 5-də jurnalistlərə açıqlamasında deyib.

Türkiyədə yanğınların söndürülməsi üçün Azərbaycandan ümumilikdə 500-ə yaxın şəxsi heyətin göndərildiyini vurğulayan F.Əsədov bildirib: "Bundan başqa, FHN-in bir helikopteri də yanğınların söndürülməsində iştirak edir. Həmçinin 100 yanğınsöndürmə texnikası Türkiyədə yanğınların söndürülməsi işlərinə cəlb olunub. Əməkdaşlarımızın meşə yanğınlarının söndürülməsi sahəsində kifayət qədər zəngin təcrübəsi var. Yanğınsöndürənlərimiz qardaş ölkədə yanğınların söndürülməsi işində ruh yüksəkliyi ilə iştirak edirlər".

Xidmət rəisi bugünədək Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarından heç birinin ciddi xəsarət almadığını bildirib.

Xatırladaq ki, avqustun 5-də saat 06 radələrində FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi Türkiyəyə yola düşüb.

FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da, 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrup isə iyulun 31-də Türkiyəyə yola salınıb. Yanğınsöndürmə qüvvələrinin koordinasiyalı idarəetməsinin təşkili məqsədilə fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev hazırda Türkiyədədir. Azərbaycan yanğınsöndürənləri alovların söndürülməsi və qarşısının alınmasında fədakarlıqla çalışırlar.

## *Amfibiya təyyarəsinin bort-mühəndis təlimatçısı:* "Yanğınlar tam söndürülənə qədər Türkiyədə qalacağıq"



Türkiyədəki yanğınların söndürülməsində iştirak etmək üçün Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, bu gün yenidən Türkiyəyə yola düşürük. Dalaman aeroportunda endikdən sonra həmin ərazilərdə işə başlayacağıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyədə meşə yanğınlarının söndürülməsi üçün avqustun 5-də Heydər Əliyev Beynəlxalq Aeroportundan qardaş ölkəyə yola salınan Fövqəladə Hallar Nazirliyinin (FHN) "BE-200ÇS" tipli amfibiya təyyarəsinin bort-mühəndis təlimatçısı Cavid Qəhrəmanov jurnalistlərə müsahibəsində deyib.

C.Qəhrəmanov bildirib: "Bildiyiniz kimi, biz bir müddətdir Türkiyədə yanğınların söndürülməsi istiqamətində çalışırdıq. Texniki baxış məqsədilə bir günlük Azərbaycana qayıtdıq. Burada təyyarəyə texniki baxış keçirildi və dövlət başçısının tapşırığı ilə yenidən Türkiyəyə yola düşürük".

Heyətin Türkiyədə qalma müddəti ilə bağlı məlumat verən C.Qəhrəmanov deyib: "Bu, yanğınların qarşısının alınmasından asılıdır. Yəqin ki, yanğınlar tam söndürülənə qədər qardaş ölkədə işimizi davam etdirəcəyik. Yanğının miqyasından asılı olaraq, istiqamətləri dəyişə bilərik. Hər vəziyyətə hazırıq. Təyyarəmiz 20-25 saniyə ərzində 12 ton su götürmək qabiliyyətinə malikdir. Bu təyyarə götürdüyü suyu 50 metr hündürlükdən yanğın ərazisinə atır. İndiyədək Azərbaycanda və digər ölkələrdə baş verən yanğınların söndürülməsində bu təyyarədən geniş istifadə edilib. Hər dəfə də yanğınların söndürülməsi işi uğurla başa çatdırılıb".

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da, 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrup isə iyulun 31-də Türkiyəyə yola düşüb. Yanğınsöndürmə qüvvələrinin koordinasiyalı idarəetməsinin təşkili məqsədilə fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev hazırda Türkiyədədir. Azərbaycan yanğınsöndürənləri alovların söndürülməsi və qarşısının alınmasında fədakarlıqla çalışırlar.

## Azərbaycan FHN-in qüvvələri Türkiyədə Kəmərköy və Yeniköy İstilik Elektrik stansiyalarını mühafizəyə götürüb





Türkiyənin Muğla vilayətinin Milas rayonunda meşəlik ərazidə baş vermiş yanğın genişlənərək Kəmərköy İstilik Elektrik Stansiyasında (İES) yanğına səbəb olub.









Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, FHN-in Türkiyədə olan yanğın-xilasetmə qüvvələri bununla əlaqədar yerli qüvvələrlə birlikdə İES-də baş verən yanğını avqustun 5-də səhər saatlarında söndürməyə müvəffəq olublar. Bununla da yanğının yaxınlıqda yerləşən Yeniköy İES-ə keçməsinin qarşısı alınıb.

Hər iki İES-in bölgənin elektrik enerjisi ilə təchizatında strateji rol oynadığı nəzərə alınaraq, Kəmərköy və Yeniköy stansiyaları Azərbaycan FHN-in qüvvələri tərəfindən yanğından mühafizəyə götürülüb. FHN-in Türkiyədəki qüvvələrinə rəhbərlik edən nazir müavini general-leytenant Etibar Mirzəyev bununla əlaqədar stansiyaların yanğına qarşı etibarlı mühafizəsinin təşkili məqsədilə yerli məsul vəzifəli şəxslərlə görüşüb. Görüşdə bu istiqamətdə fikir mübadiləsi aparılıb, atılacaq qabaqlayıcı addımlar müzakirə olunub.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, FHN-in Türkiyəyə göndərilmiş müvafiq qüvvələri hazırda qardaş ölkədə yanğınlarla uğurla mübarizə aparır.

## FHN-in yanğın-xilasetmə qüvvələrindən ibarət üçüncü qrup Türkiyəyə yola düşüb









Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələrinin növbəti - üçüncü qrupu avqustun 5-də qardaş ölkəyə yola salınıb.

AZƏRTAC xəbər verir ki, səhər saat 6 radələrində FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi Türkiyəyə yola düşüb. Saat 11-də isə 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürən Bakıdan Türkiyə istiqamətində hərəkətə başlayıb. Qrupla birlikdə media nümayəndələri də Türkiyəyə yola düşüblər.

Qrupun üzvlərini FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi general-mayor Füzuli Əsədov yola salıb, onlara müvafiq tapşırıqlar verib. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola düşüb. Yanğınsöndürənlərimiz iki qrupa ayrılaraq Marmaris bölgəsində yanğınların söndürülməsinə çalışırlar. Azərbaycan yanğınsöndürənləri isti hava şəraitində mürəkkəb relyefli dağlıq ərazidə yanğınların söndürülməsi üçün fədakarlıqla mübarizə aparırlar.

FHN-in 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət yola düşən ikinci qrupu iyulun 31-də qardaş ölkəyə yola salınıb. İkinci qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub. Yanğınsöndürmə qüvvələrinin koordinasiyalı idarəetməsinin təşkili məqsədilə fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin başçılığı ilə qurumun məsul vəzifəli əməkdaşlarından ibarət nümayəndə heyəti qardaş ölkədədir.

## FHN-in Türkiyəyə yollanan növbəti yanğın-xilasetmə qrupu Gəncəyə çatıb





Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə yola salınan Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələrinin növbəti - üçüncü qrupu saat 18 radələrində Gəncə şəhərinə çatıb.

AZƏRTAC xəbər verir ki, yanğın-xilasetmə qrupunun tərkibinə 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürən daxildir. Qrupla birlikdə media nümayəndələri də Türkiyəyə yola düşüblər.

Gəncədə qısa fasilədən sonra qrup Gürcüstan istiqamətində hərəkət edəcək.

Qeyd edək ki, FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi avqustun 5-i səhər saat 06:00 radələrində Türkiyəyə yola düşüb.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola düşüb. Yanğınsöndürənlərimiz iki qrupa ayrılaraq hazırda Marmaris bölgəsində yanğınların söndürülməsində fədakarlıqla çalışırlar. Xüsusilə havanın yüksək temperaturunun hökm sürdüyü mürəkkəb relyefli dağlıq ərazidə yanğınsöndürənlərimiz mətinliklə mübarizə aparırlar.

İyulun 31-də FHN-in 1 helikopter, 53 ədəd yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu qardaş ölkəyə yola salınıb. Qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub.

FHN-in Türkiyədəki qüvvələrinin koordinasiyalı idarə edilməsi məqsədilə fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin başçılığı ilə qurumun məsul vəzifəli əməkdaşlarından ibarət nümayəndə heyəti qardaş ölkədədir.

# Söz və fikir azadlığı cəmiyyətimizin demokratik inkişafına xidmət edir

## KİV üzərində senzuranın aradan qaldırılmasından 23 il ötür

Əvvəli 1-ci səh.

Lakin o dövrdə hakimiyyətdə olan iqtidarlar tərəfindən demokratik dəyərlərin bərqərar edilməsi, o cümlədən kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı demokratik prinsiplərə uyğun heç bir addım atılmadı. Əksinə, 1992-ci il aprelin 12-də prezident səlahiyyətlərini icra edən Y.Məmmədovun fərmanı ilə hərbi senzura tətbiq etmək adı altında mətbuat üzərində nəzarət daha da gücləndirildi. 15 aprel 1993-cü il tarixində isə ölkəyə rəhbərlik edən Ə.Elçibəyin sərəncamı ilə hərbi vəziyyətlə bağlı senzura təkcə hərbi sirlərə deyil, bütün məlumatlara aid edilərək jurnalistlərin sərbəst informasiya fəaliyyəti tam məhdudlaşdırıldı.

Mətbuata təzyiqlər yalnız senzura ilə bitmirdi. O dövrdə hakimiyyət orqanlarının ünvanına səslənən kiçicik tənqidi fikir belə, jurnalistin fiziki zorakılığa məruz qalması ilə nəticələnirdi.

Bu sahədə vəziyyət Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra müsbətə doğru dəyişdi. Ulu Öndərin başlatdığı demokratik islahatlar mətbuatdan da yan ötmədi. Hüquqi, dünyəvi və demokratik dövlət quruculuğuna başlayan Heydər Əliyevin tarixi xidmətləri nəticəsində ölkədə kütləvi informasiya vasitələrinin fəaliyyətində inkişafa doğru əsaslı dönüş yarandı, mətbuat və söz azadlığının, fikir plüralizminin əsası qoyuldu. Siyasi həmlələrdən əziyyət çəkən KİV təzyiqlərdən azad oldu. Azad sözün inkişafı məqsədilə KİV-in sərbəst istehsalı və yayımı təmin edildi. Demokratik cəmiyyətin əsas meyarlarından hesab olunan azad sözün və fikir azadlığının təmin edilməsini 1995-ci ildə qəbul edilən Konstitusiya hüquqi baxımdan təsdiqlədi.

Cəmiyyətin inkişafında azad sözün rolunu həmişə yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev 1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Söz, fikir və məlumat azadlığının qorunması və inkişaf etdirilməsi, jurnalist kadrların peşə hazırlığının və təhsilinin səviyyəsinin yüksəldilməsi və digər məsələlərin yer aldığı fərmana əsasən Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Həmçinin Azərbaycan Respublikası Prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli 685 saylı fərmanı və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli 372 saylı sərəncamı qüvvədən düşmüş hesab edildi. Beləliklə, bu fərmanla Azərbaycanda mətbuat üzərindən senzura birdəfəlik götürüldü.

Bu 1875-ci ildə "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatının ilk dəfə senzuradan tamamilə azad edilməsi idi. Fərmanda yer alan məsələlərin icra olunması ölkədə kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, söz azadlığı kimi demokratik dəyərin bərqərar edilməsində mühüm addım oldu.

Fərmanda mətbuatın və jurnalistlərin qarşısında dayanan vəzifələrə də diqqət yetirildi: " Mətbuat və televiziya xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, inkişafı və geniş ictimaiyyət arasında yayılmasının qayğısına qalmalıdır. Jurnalistlərin peşəkar səviyyəsini artırmaq, vətəndaşlarda kütləvi informasiya vasitələrinə obyektiv münasibət aşılamaq, mətbuatın imkanlarından bacarıq və məsuliyyətlə istifadə etmək istiqamətində həm dövlət, həm də mətbuat orqanlarının özləri çox işlər görməlidirlər. Bununla bağlı kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin və digər əməkdaşların vətənpərvərliyi, yüksək vətəndaşlıq məsuliyyəti, peşə hazırlığı, təhsili, təmiz mənəvi siması xüsusi əhəmiyyət kəsb edir. Kütləvi informasiya vasitələrində Azərbaycan qanunvericiliyinin tələblərinə, milli mənəviyyatımıza uyğun hüquqi və etik normaların gözlənməsi hər bir jurnalist üçün ən vacib vəzifə olmalıdır".

Sonrakı dövrdə qəbul edilən qanunlar ölkədə demokratiyanın möhkəmlənməsinə xidmət etməklə yanaşı, söz və mətbuat azadlığının hüquqi bazasını daha da möhkəmləndirdi. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğvi ilə kütləvi informasiya vasitələrinin təsis olunması daha da asanlaşdı. Ulu Öndər Heydər Əliyevin KİV-in inkişafı sahəsində atdığı addımların nəticəsi kimi mətbuatın maddi-texniki və maliyyə bazasını möhkəmləndirmək üçün mühüm qərarlar qəbul edildi, güzəştlər tətbiq olundu. Ayrı- ayrı qəzetlərin dövlət orqanlarına olan borcları donduruldu.

Mətbuatın demokratik dəyərlər əsasında inkişafı bu gün ölkədə həyata keçirilən uğurlu siyasətin göstəricilərindən biridir. Mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrə əsaslanmaqla, xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayan Prezident İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın fundamental şərti hesab edir.

Bütün bunların nəticəsidir ki, Azərbaycanda istənilən təşkilat, partiya və ayrı-ayrı şəxslər maneəsiz qəzet təsis edə və istədiyi mövzuya toxuna bilər. Hər bir media qurumu KİV haqqında qanunvericiliyə uyğun olaraq sərbəst fəaliyyət həyata keçirir. Dünyanın heç də hər yerində bu cür demokrtik qaydalara rast gəlmək mümkün deyil. Bütün bunlar təsdiq edir ki, Azərbaycanda söz və mətbuat azadlığı tam təmin olunub.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

## Şəhid gizir Naiq Ələkbərovun ailəsi ziyarət olunub



Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərərək şəhid olmuş gizir Naiq Ələkbərov Faiq oğlunun ailəsi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə ziyarət edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə şəhidin xatirəsi ehtiramla yad edilib. Vətən üçün belə cəsur oğul böyütdüklərinə görə şəhidin valideynlərinə dərin minnətdarlıq ifadə olunub. Cəsur döyüşçünün xatirəsini yad etməyə gələnlər Naiq Ələkbərovun evində düzəldilmiş "Şəhidlər ölməz - Vətən bölünməz" guşəsinə baxıblar. Guşəyə cəsur döyüşçünün bir vaxtlar oxuduğu kitablar, fotoları, müxtəlif illərdə xidmətdə fərqləndiyinə görə aldığı fəxri fərmanlar və Vətən müharibəsində qəhrəmanlığı sayəsində layiq görüldüyü orden və medallar qoyulub.

Gizir Naiq Ələkbərov Vətən müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Sonda gizir Naiq Ələkbərovun valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

Sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində "Şəhidlər ölməz" adlı tədbirlər silsiləsindən şəhid İlkin Zülfüqarovun və Naiq Ələkbərovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində hər iki şəhidin həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş etdirilib.

Çıxış edənlər İlkin Zülfüqarov və Naiq Ələkbərovla bağlı olan xatirələrini dilə gətiriblər.

Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən mahnılar oxuyublar.

## Qubadlıdan olan şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət təltifləri təqdim edilib

Sumqayıt şəhərində yerləşən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qubadlı rayon bölməsində şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına medallar təqdim olunub.

Tədbirdə YAP Qubadlı rayon təşkilatının sədri, Qubadlı Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haxverdiyev, rayon icra hakimiyyətinin məsul işçiləri, şəhidlərimizin və müharibə iştirakçılarının ailə üzvləri və yaxınları iştirak edib.

AZƏRTAC xəbər verir ki, medalların təqdimolunma mərasimindəki çıxışlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun işğal altında olan torpaqlarımızı mənfur düşməndən azad edərək xalqa qürur, fəxarət yaşatdığı günlər yada salınıb.

Bildirilib ki, işğal altında olan torpaqların azad olunması Qubadlı sakinlərini də ürəkdən sevindirdi. Vətən müharibəsi Azərbaycanda dövlət və xalq arasında olan birliyin sarsılmaz olduğunu sübut etdi. Prezident İlham Əliyevin dəmir yumruğu tarixi ədaləti bərpa etdi. 44 günlük Vətən müharibəsində canı və qanı bahasına ərazi bütövlüyümüzü bərpa edən hər bir əsgər və zabitimiz bizim qürurumuzdur.

Tədbir zamanı Prezident İlham Əliyevin sərəncamı ilə Milli Qəhrəman Həmidov Şükür Nəriman oğlunun təltif olunduğu (ölümündən sonra) "Füzulinin azad olunmasına görə" medalı şəhidin oğlu Həmidli Nurlan Şükür oğluna təqdim edilib. Həmçinin 13 nəfər Vətən müharibəsi iştirakçısına "Füzulinin azad olunmasına görə" medalları təqdim olunub.

Daha sonra şəhidlərin ailə üzvləri və Vətən müharibəsi iştirakçıları göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Jurnalistlərin münaqişə zonasında davranışlarına dair təlim proqramı başa çatıb





Azərbaycan Respublikasının Medianın İnkişaf Agentliyi, ADA Universiteti, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə avqustun 1-dən 5-dək keçirilən "Jurnalistlərin münaqişə ərazilərində davranışları: Təhlükəsizlik və mühafizə qaydaları" mövzusunda təlim proqramı başa çatıb.

AZƏRTAC xəbər verir ki, bağlanış mərasimində çıxış edən Medianın İnkişaf Agentliyinin icraçı direktoru Əhməd İsmayılov təlimlərin hazırkı şəraitdə böyük praktiki əhəmiyyət daşıdığını bildirib. O, Medianın İnkişafı Agentliyinin bundan sonra da bu məzmunda keçiriləcək təlimlərə dəstək verəcəyini vurğulayıb.

Qeyd edək ki, proqram çərçivəsində Əl-Cəzirə Media Şəbəkəsinin heyəti tərəfindən Azərbaycan Media nümayəndələri üçün "Jurnalistlər üçün risk təhlili və əməliyyat planlaşdırılması", "Xəbər toplamaqda riskin qiymətləndirilməsi", "Ballistik təhlükə", Şəxsi təhlükəsizlik", "Zərərçəkənlərin qiymətləndirilməsi", "Nümayiş və ictimai qarışıqlıq", "Minalar və əldə hazırlanmış partlayıcı qurğular haqqında məlumat", "Yara və qanaxmanın idarə olunması", "Səyahət təhlükəsizliyi", "Hava hücumu və dron haqqında məlumat", "Bədəndə yaranmış qırıq hallarının idarə olunması", "Yanğının idarə olunması", "Qaçırılma və xüsusi risklər", "Praktiki və təlim reviziyası", "Planlaşdırma və risk qiymətləndirmə testi", "Yekun praktiki ssenari test" mövzularında təlimlər keçirilib. Təlim zamanı real praktik misallardan istifadə edilməklə, iştirakçılara müvafiq mövzularla bağlı məlumatlar verilib.

Təlim proqramının sonunda müxtəlif media subyektlərindən olan 19 nümayəndəyə sertifikatlar təqdim edilib.

## "YAŞAT" düşərgəsinin üçüncü həftəsində konsert proqramı təşkil olunub

"YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinin üçüncü həftəsi davam edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, düşərgənin üçüncü günündə ilkin olaraq səhər idmanı və fərdi psixoloji konsultasiyalar keçirilib.

İştirakçılar həmçinin "YAŞAT" Fondunun əməkdaşı, Qarabağ qazisi Nəbi Şükürovla görüşüblər.

Sonra uşaqlar Astara şəhərindəki "Marciel Hotel"in dəvəti ilə orada müxtəlif istirahət və əyləncə imkanlarından yararlanıblar.

Günün sonunda Xalq artisti Tünzalə Ağayevanın iştirakı ilə konsert proqramı təşkil olunub.

Düşərgə ərzində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər, peşəkarlar, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramının keçirilməsi nəzərdə tutulub.

Düşərgənin üçüncü həftəsi də şəhidlərimizin 8-11 yaş kateqoriyasında olan övladlarını əhatə edir.

Həmçinin tərəfdaşlar tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilir.

Düşərgə boyunca uşaqlar sığortalanmış olacaqlar və davamlı olaraq həkim nəzarəti və psixoloqlar tərəfindən müşayiət ediləcəklər. Psixoloqlar tərəfindən art və rəqs terapiyalar keçiriləcək, o cümlədən baş tutacaq fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdiriləcək və fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunacaqlar.

İyulun 12-dən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edəcəkdir.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur.

Düşərgənin baş sponsorları "Lankaran springs" hotel, "PMD Hospitality"dir.

Sponsorlar "Elektron Hökumətin İnkişafı Mərkəzi", "İnnovasiyalar Mərkəzi", "PAŞA Həyat", "Bravo", "Nar", "Gazelli Group", "Rabitəbank", "Turanbank", "Decoria", "Port of Baku", "AMO Group", "Slavyanka", "Azərsun", "Shokki Mokki", "Mango", "Next", "Əli və Nino", "Oven", "Civil", "Happy day cake", Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), "Gənc Psixoloqlar" İctimai Birliyi, logistika dəstəyi Bakı Nəqliyyat Agentliyidir.

# Koronavirus bizdən güclü olmamalıdır

Əvvəli 1-ci səh.

Azərbaycanda da son günlər yoluxma və ölüm sayı artıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, koronavirus infeksiyasına yoluxanların sayı 1000-ə yaxınlaşır. Pandemiya başlayandan Azərbaycan dövləti vacib və zəruri tədbirləri ardıcıl olaraq həyata keçirir. Yeni xəstəxanaların açılması, vaksinasiya prosesinin uğurla həyata keçirilməsi və digər işlər buna misaldır. Ancaq bir ildən artıqdır ki, hər birimiz üçün aydın olan bir həqiqət var.

Həyatımızı, sağlamlığımızı təhdid edən koronavirusa qalib gəlmək, bu ümumi bəlanı dəf etmək üçün hər kəs öz üzərinə düşən məsuliyyəti anlamalı və zəruri qaydalara əməl etməlidir. Və əslində, bu vacib və məsuliyyətli vəzifə o qədər də ağır deyil. Unudulmaması mühüm olan maska taxmaq, məsafə saxlamaq və gigiyenik tələblərə riayət etməkdir.

### Zəruri qaydalar "unudulur"

Başa düşmək olar, qızmar yay günlərində maska taxmaq asan deyil. Amma nəzərə almalıyıq ki, açıq havada belə bir qadağa yoxdur. Yalnız qapalı məkanlarda, ictimai nəqliyyatda maska taxmaq lazım gəlir ki, bununla da hər kəs yalnız ətrafındakı insanların deyil, ilk növbədə öz sağlamlığının qayğısına qalmış olur. Təəssüf ki, alış-veriş yerlərində, ictimai nəqliyyatda çoxları bunu unudaraq ya maskadan düzgün istifadə etmir, ya da ümumiyyətlə laqeydlik göstərir.

Bu günlərdə Bakıda qapalı məkanlarda və ictimai nəqliyyatda reydlər keçirilib. DİN Mətbuat xidmətindən verilən məlumata görə, Suraxanı rayonunda maskadan istifadə etməyən şəxslər RPİ və DYP əməkdaşları tərəfindən avtobuslardan düşürülüb. Eyni zamanda profilaktik tədbirlər zamanı taksilərdə şəffaf arakəsmələr quraşdırmayan sürücülər, həmçinin avtomobilin ön oturacağında əyləşən və tibbi maskadan istifadə etməyən sərnişinlər barədə də qanunauyğun tədbirlər görülüb.

Paytaxtın Binəqədi rayonunda da analoji tədbir həyata keçirilib. İctimai nəqliyyat vasitələrində aparılan yoxlamalar zamanı xeyli sayda pandemiya qaydalarına əməl etməyən şəxslər aşkar edilib və onlarla profilaktik söhbətlər aparılıb. Pandemiya qaydalarına uyğun olaraq ictimai nəqliyyatda sərnişinlərin maskadan istifadə etməsinə birbaşa olaraq nəzarət etməli olan sürücülərə də xəbərdarlıq edilib.

### "Bir-birimizə dəstək olaq, güclü olaq, qalib olaq"

Elə məsələnin maraqlı tərəflərindən biri də budur. Sərnişin daşıyan avtobuslarda, taksilərdə sürücülərin özlərinin maska taxmadıqlarının şahidi oluruq. Sərnişinlər də eyni qaydada ictimai nəqliyyata daxil olurlar. Doğrudur, avtobuslarda, taksilərdə sərnişinlərə maska taxmağın vacibliyini xatırladan yoxdur. Amma metroya qədəm qoyduğun andan, əslində, hər birimizin bildiyimiz və əməl etməli olduğumuz qaydalar dönə-dönə xatırladılır. Adətən, metroya daxil olarkən orada çalışan əməkdaşlar maska taxmayanlara xəbərdarlıq edirlər. Hər metrostansiyada da elan olunur: "Maska taxaq, məsul olaq, məsafə saxlayaq, diqqətli olaq, bir-birimiz naminə güclü olaq", "Xahiş olunur maska taxın, aranızda məsafə saxlayın, koronavirus sosial məsuliyyətinizdən güclü olmasın", "Məsafə saxlayaq, maska taxaq, bir-birimizə dəstək olaq, güclü olaq, qalib olaq", "Xahiş edirik maskadan istifadə edin, məsafə saxlayın, özünüzü və ətrafınızdakı insanları qoruyun".

Eskalatordan enərkən yenidən zəruri qaydalar və məsuliyyət daşıdıqları vəzifələr sərnişinlərə xatırladılır: "Koronavirusdan qorunmaq üçün evdə, işdə əllərinizi tez-tez yuyun, kütləvi yerlərə getməyin, piyada gəzməyə üstünlük verin, nəqliyyatdan az istifadə edin. Maska taxın, əks təqdirdə cərimə olunacaqsınız. Unutmayın, maska ağız və burun boşluğunu tam örtməlidir. Keçid və vestibüldə, eskalator və pilləkənlərdə, platformada və qatarda aranızda məsafə saxlayın, stansiya və qatarda maskanı ağız və burundan aşağı salmayın. İşarələnmiş oturacaqlarda əyləşməyin, bu hər birimizin məsuliyyətidir. Koronavirus bizdən güclü olmasın. Birlikdə olaq, güclü olaq, qalib olaq".

Koronavirusa qalib gəlməyin bəlli olan yollarını yaddan çıxarırıqsa, sadə qaydalara əməl etməyə etinasızlıq göstəririksə, həm özümüzün, həm də başqalarının həyatını, sağlamlığını düşünmürüksə, həsrətində olduğumuz, darıxdığımız normal vəziyyətə qayıtmağımız mümkünsüz olacaq.

Bu gün çoxlarını maraqlandıran məsələlərdən biri də sentyabrda orta məktəblərin açılıb-açılmayacağıdır. Bununla bağlı danışmaq hələ tezdir. Çünki pandemiya ilə bağlı rəqəmlər artır.

### Pandemiyanın bitməsi fərdlərdən asılıdır

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı və qurumun Avropa üzrə regional direktoru Hans Henri P. Kluge koronavirus pandemiyasının nə vaxt bitməsi ilə bağlı məsələdən danışarkən bunun fərdlərdən və hökumətlərdən asılı olduğunu diqqətə çatdırıblar: "Nələrin işə yaradığını bilirik, sübutumuz var. Ümid var. Özünüzü və digər insanları qorumaq pandemiyanı nəzarət altına almaq və tədricən sona çatdırmaq üçün çox vacibdir. Uzun yol qət etmişik və çətinliklərə davam gətirmişik. İndi ehtiyatı əldən verə bilmərik".

Peyvəndlərin təhlükəsizliyi ilə bağlı məsələyə də aydınlıq gətirilib. Qeyd olunub ki, ÜST-ün fövqəladə hallarda istifadə siyahısında olan bütün peyvəndlər təhlükəsizdir və hazırda mövcud olan ştammlar da daxil olmaqla, COVID-19-dan ağır xəstələnmənin qarşısının alınmasında effektivdir. Peyvəndlərin bir çoxu fövqəladə hallar üçün, bəzisi isə ümumi təsdiqlənib. Cebhe.info ÜST-ün ümumi və fövqəladə hallar üçün nəzərdə tutulan peyvənd siyahısını araşdırıb. ÜST ilk dəfə COVID-19 əleyhinə "Pfizer" peyvəndini təsdiq edib. Bu barədə məlumat yanvarın 1-də təşkilatın "Twitter" hesabında yerləşdirilib. Təşkilatın sosial şəbəkə hesabında qeyd olunub ki, bu vaksin təhlükəsizlik və effektivlik parametrlərinə uyğundur.

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**









## "Birlikdə yaşadaq" tədbiri çərçivəsində keçirilən sərgi zamanı 100-ə yaxın sənət əsəri nümayiş olunub

Avqustun 5-də Şəki regional "ASAN xidmət" mərkəzində "Birlikdə yaşadaq" tədbiri təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, mərkəzdə könüllülər və əməkdaşlar tərəfindən müxtəlif materiallardan, kağız və tullantılardan, taxta, sulu və yağlı boyadan, toxunma iplərdən hazırlanmış incəsənət nümunələri, həmçinin Şəki "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin sənətkarları tərəfindən könüllü olaraq dəstək məqsədilə təqdim edilmiş əl işlərinin sərgisi və satışı reallaşdırılıb.

Tədbirdə "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, millət vəkili Vüqar İskəndərov, müxtəlif idarə və müəssisələrin rəhbər şəxsləri, sahibkarlar və digər qonaqlar iştirak ediblər.

Sərgidə müxtəlif mövzularda 100-ə yaxın sənət əsəri nümayiş olunub. Tədbirin əsas məqsədi sərgi-satışdan toplanmış məbləği "YAŞAT" Fonduna ianə etməklə şəhid ailələrinə və qazilərə dəstək olmaqdır.

Xatırladaq ki, "YAŞAT" Fondu Prezident İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə yaradılıb. Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan daha bir beynəlxalq reytinqdə liderdir



Əvvəli 1-ci səh.

Müharibə başa çatdıqdan sonra ölkəmiz iqtisadi islahatların yeni mərhələsinə adlayıb. Bu gün də, savaşdan öncə də olduğu kimi, sosial-iqtisadi, xüsusən islahatlar sahəsində uğurlarımız davam edir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin sonuncu "İslahat icmalı" bu baxımdan xüsusi maraq doğurur. Qeyd edək ki, bu icmal Azərbaycanın kağızsız ticarət sahəsində regional liderliyinə həsr olunmuşdur.

BMT-nin Asiya və Sakit Okean Komissiyasının (UNESCAP) "Transsərhəd kağızsız ticarətə hazırlığın qiymətləndirilməsi" layihəsinin cari il üzrə sorğusunun nəticəsinə görə, Azərbaycan 2019-cu illə müqayisədə 5 faiz artım nümayiş etdirərək ümumilikdə 86,02 faizlə həm qonşu (Rusiya 84,95, Gürcüstan 82,8, İran 77,42, Ermənistan 62,37, Türkiyə 86,02 faiz), həm də MDB-yə üzv ölkələrlə müqayisədə ilk yerdə qərarlaşmışdır. Onu da diqqətə çatdırmaq lazımdır ki, bütün dünya üzrə ortalama göstərici 64,95, inkişaf etmiş ölkələr üzrə isə 81,86 faizdir.

"İslahat icmalı"nda qeyd olunur ki, Prezident İlham Əliyev tərəfindən bu sahədə aparılan geniş islahatlar nəticəsini verir. Belə ki, "Rəqəmsal Ticarət Qovşağı" portalının yaradılması və "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin fərmanından irəli gələn tapşırıqların yerinə yetirilməsi transsərhəd ticarət prosedurlarının sadələşdirilməsinə gətirib çıxarmış, elektron və kağızsız ticarətin, xüsusilə də transsərhəd kağızsız ticarətin inkişafını stimullaşdırmışdır. Təsadüfi deyil ki, Azərbaycan reytinqin transsərhəd kağızsız ticarət alt indikatoru üzrə 2 il müddətinə 33 faiz artım əldə etmiş və bu sahənin inkişaf sürətinə görə qlobal səviyyədə öncül mövqeyə sahib olmuşdur.

Gömrük sahəsində aparılmış islahatlar - "Yaşıl Dəhliz", "Avtomatlaşdırılmış Gömrük Sistemi" və "Bir pəncərə" elektron sisteminin yaradılması, gömrük bəyannamələrinin elektron qaydada doldurulması və sertifikatların elektron formada təqdim edilməsi, eləcə də gömrük rüsumları və vergilərinin elektron formada ödənilməsi Azərbaycanda ticarət prosedurlarının sadələşdirilməsinə xidmət etməklə, reytinqdə də "tam icra" kimi qiymətləndirilərək mövqeyimizin yaxşılaşdırılmasına səbəb olmuşdur. Eyni zamanda Azərbaycanın 20 fevral 2021-ci il tarixdən qüvvəyə minən "Asiya-Sakit Okeanında Sərhədlərarası Kağızsız Ticarətin Asanlaşdırılması Çərçivə Sazişi"ni imzalayan ilk dövlətlərdən olması da qlobal müstəvidə ölkənin bu sahədə mövqeyinin yaxşılaşdırılmasına faydasını vermişdir.

Qısası, aydın görünəni budur: Azərbaycanın 30 illik mübarizəsinin nəticəsi olan 44 günlük müharibədəki ildırım sürətli qələbəsi ölkəmizi və onun iqtisadiyyatını elə yeni mərhələyə qaldırıb ki, onu etiraf etməmək mümkün deyil.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Naxçıvan MR-də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramının icrası davam edir

Kənd təsərrüfatının inkişaf etdirilməsi və bu sahədə mövcud problemlərin mütərəqqi həll yollarının işlənib hazırlanması məqsədilə qəbul olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatını, əsasən, yerli istehsal hesabına ödənilməsini təmin edib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhalinin tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır. Yeni və ənənəvi meyvə sortlarından ibarət bağların salınması davam etdirilir. Bu məqsədlə 2021-ci ilin ikinci rübündə muxtar respublikada, ümumilikdə, 48,9 hektar sahədə yeni meyvə bağları salınıb, 121 min 302 ədəd müxtəlif növ ting, 8463 ədəd üzüm kolu əkin dövriyyəsinə daxil edilib.

Təbii ki, yaşıllıq salmaq işin bir tərəfidirsə, onu böyütmək, ərsəyə gətirmək, qulluq göstərmək işin qalan tərəfidir. Görülən işlər içərisində vacib bir məqamı - yaşıllıqların becərilməsində mütərəqqi suvarma şəbəkəsinə üstünlük verilməsini də vurğulamaq lazımdır. Bu məqsədlə 2021-ci ilin ikinci rübündə 2,2 kilometr ana xətt, 22,92 kilometr müxtəlif diametrli borularla paylayıcı boru xətti çəkilib, 232 hidrant və üç istiqamətdə çıxışı olan dəmir-beton hovuzlar quraşdırılıb, 1,5 kilometr açıq drenaj qazılıb, 3,3 kilometr qapalı drenaj xətti çəkilib.

Qeyd olunan proqramın icrası nəticəsində muxtar respublikada cari ilin ikinci rübü ərzində meyvəçiliyin inkişafına maliyyə dəstəyi davam etdirilib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən bağçılığın inkişafı məqsədilə 2 layihə üzrə 46 min manat, daxili tələbata uyğun yüksək məhsuldarlığa və intensiv üsullara əsaslanan tingçilik təsərrüfatlarının daha da inkişaf etdirilməsi məqsədilə bir layihəyə 5 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

Meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına dəstək verilməsi və yenilərinin yaradılması istiqamətində tədbirlər görülüb, Sahibkarlığın İnkişafı Fondu tərəfindən meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına 3 layihə üzrə 66 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

Hesabat dövründə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində 1 bağçılıq, Şərur rayonunda isə 1 tingçilik təsərrüfatının yaradılması, Babək rayonunda 1 üzümçülük təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılıb, Şərur və Ordubad rayonlarının hər birində 1 bağçılıq təsərrüfatının yaradılması davam etdirilib.

Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 2021-ci ilin ikinci rübü ərzində ümumi sahəsi 5 min 570 kvadratmetr olan 3 istixana təsərrüfatının yaradılması və sahəsi 552 kvadratmetr olan 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılıb. Hazırda muxtar respublikada ümumi sahəsi 151 min kvadratmetrə yaxın olan istixana kompleksləri əhalinin tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir.

Meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılmasına da ciddi önəm verilib, ikinci rübdə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına Şərur rayonunda ümumi tutumu 170 ton olan 2 soyuducu anbarın yaradılması başa çatdırılıb, ümumi tutumu 800 ton olan soyuducu anbarın yaradılması üçün "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə 424 min 750 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib, Naxçıvan şəhəri və Şərur rayonunda ümumi tutumu 1730 ton olan 4 soyuducu anbarın yaradılması istiqamətində işlər davam etdirilib. Ümumilikdə, muxtar respublika üzrə dövlət maliyyə dəstəyi və şəxsi vəsait hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 20 min 900 ton olan 48 soyuducu anbar istifadəyə verilib.

Muxtar respublikanın aqrar siyasətində kənd təsərrüfatında becərilən meyvə bitkilərinin genofondunun toplanılması, sort müxtəlifliyinin qorunması, zənginləşdirilməsi, tətbiqyönümlü sortların əkin sahələrinin genişləndirilməsi, istehsalının təşkili və onlardan iqtisadi səmərə əldə edilməsi əsas strateji istiqamətlərdəndir. İkinci rübdə AMEA Naxçıvan Bölməsinin Nəbatat Bağında müxtəlif meyvə sortlarından ibarət calaq işləri həyata keçirilib, 600-ə yaxın meyvə tingi calaq edilib.

Müasir dövrdə sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün sahələrini əhatə etməklə, maddi rifahın və sahibkarlıq riskinin zəmanətçisi kimi çıxış edir. Meyvə bağlarının və tərəvəz əkini sahələrinin sığortalanması işinin davam etdirilməsi məqsədilə 2021-ci ilin ikinci rübü ərzində, ümumilikdə, 44 meyvə, 31 tərəvəz təsərrüfatı olmaqla, cəmi 75 meyvə bağı və tərəvəz əkini sahələrinin sığortalanması işi həyata keçirilib.

Naxçıvan Muxtar Respublikasında bazara təqdim olunan bütün məhsulların keyfiyyəti daim nəzarətdə saxlanılır ki, bu istiqamətdə meyvə-tərəvəz və onlardan hazırlanmış məhsullar xüsusi yer tutur. İkinci rübdə "İstehlak Mallarının Ekspertizası" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasında meyvə-tərəvəz məhsullarından götürülən 43 nümunə laboratoriya analizlərinə cəlb edilib. Bu dövrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər üzrə məhsulların 50 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılıb.

Muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracının davam etdirilməsi məqsədilə gömrük prosedurları qanunvericiliyə uyğun olaraq sadələşdirilib, malların sürətli keçidləri təmin olunub. Dövlət Gömrük Komitəsi tərəfindən kənd təsərrüfatı məhsullarının gömrük sərhədindən sürətli buraxılışının təmin edilməsi üçün ixracatçılara "Yaşıl dəhliz" buraxılış sistemlərindən daimi istifadə hüququ verilib.

Yerli məhsullarımızın satışına və təbliğinə geniş imkanlar açan, süni qiymət artımına maneə yaradan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı yarmarkaları daxili bazarın inkişaf etdirilməsində əsas istiqamətlərdən biri kimi mühüm rol oynayır. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində kənd təsərrüfatı və sənaye məhsulları yarmarkası təşkil olunub və məhsulların bazar qiymətlərindən 10 faiz aşağı qiymətə satılmasına nəzarətin həyata keçirilməsi təmin edilib.

Bütün bunlar onu göstərir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı davamlı xarakter daşıyır və bu sahədə yaradılmış baza növbəti illərdə daha mühüm nailiyyətlərin qazanılmasına töhfə verəcək.

## Azərbaycan gömrükçüləri təcrübələrini özbəkistanlı həmkarları ilə bölüşüblər



Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşları gömrük işinin müxtəlif sahələri üzrə əldə etdikləri qabaqcıl təcrübəni özbəkistanlı həmkarları ilə bölüşüblər.

Bu məqsədlə hər iki ölkənin gömrük əməkdaşları arasında onlayn formatda görüş keçirilib. Görüşdə DGK Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, gömrük işinin təşkili istiqamətində də səmərəli və işgüzar münasibətlərin qurulduğunu bildirib. İdarə rəisi bu tədbirin əməkdaşlığın və qarşılıqlı təcrübə mübadiləsinin inkişafına töhfə verəcəyini vurğulayıb.

Tədbirdə Azərbaycan gömrüyünün informasiya texnologiyalarının tətbiqi, sərhədkeçmə prosesləri, gömrük nəzarətinin təşkili və digər sahələrdə əldə etdiyi qabaqcıl təcrübə barədə təqdimatlar keçirilib, son illər tətbiq edilən layihələr barədə məlumat verilib.

DGK Rəqəmsal Gömrük İnzibatçılığı İdarəsinin rəisi Rauf Quliyev Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin iş prinsipi, sərhədkeçmə proseslərində informasiya texnologiyalarının tətbiqi, gömrük nəzarətinin asan və sürətli şəkildə həyata keçirilməsi məqsədilə reallaşdırılan yeniliklər, "E-növbə" və "Sürətli keçid" layihələri barədə özbəkistanlı həmkarlarını məlumatlandırıb.

DGK Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsinin əməkdaşı Emin İsmayılov isə "Gömrük sərhəd-keçid məntəqələrində tətbiq edilən gömrük prosedurları və əməliyyatları" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda nəqliyyat vasitələrinin sərhədkeçmə prosesləri, gömrük-sərhəd keçid məntəqələrində tətbiq edilən yeniliklər, sanitar, fitosanitar nəzarət tədbirləri, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə hüququnun əldə olunması qaydaları, sistemin həm gömrük xidməti, həm də xarici ticarət iştirakçıları üçün faydalarından bəhs edilib.

Sonda Özbəkistan gömrük xidməti əməkdaşlarının sualları cavablandırılıb və təcrübə mübadiləsi, əməkdaşlığın gücləndirilməsi baxımından belə görüşlərin davamlı şəkildə keçirilməsi qərara alınıb.

## Aktiv vergiödəyicilərinin sayı artıb

"Ölkəmizdə iqtisadi aktivliyin bərpası sahibkarlıq subyektlərinin artımı ilə müşayiət olunur". AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir qeyd edib ki, 2021-ci ilin 6 ayında aktiv vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 3,9 faiz artaraq 640 min 401, ƏDV ödəyicilərinin sayı 8,9 faiz artaraq 31 min 738, qeydiyyatdan keçmiş obyektlərin sayı isə 5,8 faiz artaraq 176 min 794 nəfər təşkil edib.

## Sığortaçılar Assosiasiyasında yeni komitə yaradılır

Azərbaycan Sığortaçılar Assosiasiyasında (ASA) IT (informasiya texnologiyaları) komitəsinin yaradılması ilə bağlı qərar verilib.

ASA-dan verilən məlumata görə, yeni komitənin yaradılması ilə bağlı müvafiq qərar assosiasiyanın Müşahidə Şurasının cari ilin 2-ci rübünün yekunlarına həsr olunmuş iclasında müzakirə olunaraq qəbul edilib. Yeni komitənin yaradılmasında başlıca məqsəd yerli sığorta bazarında fəaliyyət göstərən şirkətlərin informasiya texnologiyaları sahəsindəki ümumi problemlərinin daha çevik və sistemli şəkildə həll edilməsindən, eyni zamanda, şirkətlərdəki IT istiqamətinin inkişafının stimullaşdırılmasından ibarətdir. Məlumata görə, komitənin üzv heyətinin formalaşdırılması məqsədilə sığorta şirkətlərinə artıq müraciət də ünvanlanıb.

Qeyd edək ki, bununla da Azərbaycan Sığortaçılar Assosiasiyasındakı komitələrin sayı 4-ə çatıb.

## Ağsu rayonunda 1400 tondan çox kartof istehsal olunub



Ağsu rayonunda kartof yığımı başa çatıb və sahələrdən 1431,8 ton məhsul götürülüb.

Rayon Statistika İdarəsinə istinadən AZƏRTAC xəbər verir ki, cari ilin məhsulu üçün 167,5 hektar sahədə kartof yetişdirilmişdi. Rayonun əsasən dağlıq və dağətəyi ərazilərində ailə fermer təsərrüfatları və fiziki şəxslər üçün kartofçuluq ənənəvi sahə hesab olunur. Xüsusilə dağətəyi ərazidə yerləşən Qaraqoyunlu, Padar, dağlıq zona olan Xanbulaq, Kalva və bir sıra digər ərazi icra nümayəndəliklərində kartofçuluğa maraq daha çoxdur. Sakinlər təsərrüfatın bu sahəsindən hər il xeyli gəlir götürürlər. Bu il bölgədə hər hektardan orta hesabla 85,5 sentner kartof istehsal olunub ki, bu da ötənilki göstəricidən 0,9 sentner çoxdur.

Qeyd edək ki, yığılan məhsulun bir qismi yerli bazarlara çıxarılır. Bunun nəticəsidir ki, hazırda Ağsu bazarında kartofun pərakəndə satış qiyməti aşağı düşüb.

## Daha bir avtomobil yolunun yenidən qurulması yekunlaşır

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən cari ildə də respublika üzrə müxtəlif yol infrastrukturu layihələri həyata keçirlir.



Bu çərçivədə artıq bir çox avtomobil yollarında yenidənqurma və tikinti işləri aparılır. Onlardan biri respublika əhəmiyyətli Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-cı km-dən ayrılan və Padar kəndinə gedən avtomobil yoludur.

Sözügedən yol uzunluğu 2500 metr olmaqla, 600 əhalinin yaşadığı yaşayış məntəqəsinə qədər rahat gediş-gəlişi təmin edəcək. Yolun layihə üzrə hərəkət hissəsinin eni 6, çiyinlərin eni isə hər bir istiqamət üzrə 2 metr olacaq.

Hazırda avtomobil yolu IV texniki dərəcəyə uyğun yenidən qurulur. Belə ki, tikinti layihəsinə uyğun olaraq yolun qabarmış və çökmüş hissələrinin qazılaraq çıxarılması, qazılmış hissələrinin doldurulması, yolun torpaq yatağının qaldırılması və genişləndirilməsi, gruntun hissə-hissə avtoqreyderlə yayılması və lay-lay kipləşdirilməsi işləri aparılıb. Yolun müəyyən hissəsində yolun genişləndirilməsi, optimal-qırmadaş qarışığı ilə əsasın alt layının, qum-çınqıl qarışığından isə əsasın üst layının tikintisi işləri görülüb.

Marşrut boyu yararsız hala düşmüş müxtəlif diametrli suötürücü borular yeniləri ilə əvəz edilib və zəruri olan yerlərdə müxtəlif diametrli dəmir-beton borular quraşdırılıb.

Layihənin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanları, km göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, üfüqi nişanlanma xətlərinin çəkilişi işləri aparılacaq.

Tərtib olunmuş qrafikə uyğun işlərin qısa müddət ərzində aparılaraq yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb olunub.

## Gədəbəy arıçıları builki məhsuldarlıqdan razıdırlar

Arıçılıq Azərbaycanda qədim tarixə malikdir. Hələ eramızdan əvvəl VIII-IX əsrlərdə Azərbaycan ərazisində arıçılıqla məşğul olublar. Hətta istehsal olunan balın və arı məhsullarının bir hissəsi xarici ölkələrdə satılıb. Arıçılıq bu gün də gəlirli sahə hesab edilir və odur ki, bu sahə ilə məşğul olanların sayı durmadan artır.



Təbii iqlimi, zəngin bitki örtüyü ilə əhatə olunmuş Gədəbəydə də arıçılığın inkişafı üçün hər cür şərait var. Bundan istifadə edən rayon sakinləri son vaxtlar iqtisadi cəhətdən səmərəli olan arıçılığa daha çox maraq göstərirlər. Bunun nəticəsidir ki, hər il rayonda arı ailələrinin sayı artır. Keçən il rayonda 825 nəfər arı ailəsinə qulluq edirdisə, bu il onların sayı 1000 nəfəri keçib.

Arıçılığın inkişafı ilə əlaqədar dövlət tərəfindən verilən subsidiya Gədəbəyin arıçıları arasında böyük canlanma yaratmışdır. Yeri gəlmişkən qeyd edək ki, keçən il Gədəbəy arıçılarına 94 min 250, cari il 107 min 870 manat subsidiya ödənilmişdir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə arıçılığın inkişafının stimullaşdırılması məqsədilə təsərrüfat sahiblərinə saxladıqları hər arı ailəsinə görə subsidiyaların ödənilməsi söz yox ki, arıçılıqla məşğul olanların sayını, deməli, həm də bal istehsalını artırır. Konkret misal: Arıqıran kəndinin sakini Yəhya İsgəndərovun keçən il 87 arı ailəsi var idisə, bu il onların sayı102-yə çatmışdır. Gədəbəy şəhərindən Müşfiq Kazımov və Qoşabulaq kəndindən Hafiz Əhmədov da baxdıqları arı ailələrinin sayını bu il xeyli artırmışlar.

Gədəbəy Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevlə söhbət zamanı məlum oldu ki, keçən il rayonda 80 ton bal istehsal edilmişdir. Cari ildə isə bu rəqəmin 82 tondan çox olacağı gözlənilir. Arıçılardan 6 nəfəri istehsal etdiyi balın bir hissəsini Bakıda təşkil olunan yarmarkada satsalar da, əksər sakinlər öz məhsullarını elə qapılarında satırlar.

Belə arıçılardan biri Dəyirmandağ kəndinin sakini Rafiq Nağıyevdir. O, 30 ildən çoxdur ki, arıçılıqla məşğuldur. Özü də Gədəbəy Rayon Arıçılar Assosiasiyasının sədridir. Deyir ki, arıçılıq onun ata-baba peşəsidir. Arıçılığın sirlərini ana babası Müseyib Məsimovdan və bir də o vaxtlar kənddə məktəb direktoru işləyən atası Yusif Nağıyevdən öyrəndiyini söyləyən Rafiq etiraf edir ki, bu sahədə anası Əzəd Nağıyevanın da təcrübəsindən bəhrələnib.

Həyətində 27 arı ailəsi olan Rafiq keçən il 400 kiloqramdan çox bal istehsal edib. Ali təhsilli baytar həkimi olması ona arıçılığı daha dərindən mənimsəməyə imkan verir. Həyat yoldaşı Hicran Rüstəmova orta məktəbdə müəllim işləməsinə baxmayaraq, o da arıçılığın sirlərini öyrənib. Təsərrüfat sahibinin həyətində bəslənən arıların çoxu "Boz Qafqaz" və "Qabaqtəpə" cinsləridir. Bu arılar məhsuldarlığına görə dünyada ikinci yeri tutur. Onu da qeyd edək ki, Rafiq Nağıyev balın satışından gileyli deyil. O, istehsal etdiyi məhsulu elə qapısında satır.

Əyrivəng kəndinin sakini Oruc Quliyev də arıçılıq sahəsində zəngin təcrübə toplayıb. Hazırda o, 30 arı ailəsinə qulluq edir. Keçən il 300 kiloqram bal istehsal edən arıçı deyir ki, bu il bu daha çox məhsul gözləyir. Nərimankənd kəndinin sakini İsa Qasımov da uzun illərdir ki, arı saxlayır. 85 yaşı olmasına baxmayaraq, 60 arı ailəsinə baxır. Çaldaş kəndinin sakinləri Xəqani Zeynalov 51, Təbriz Vəliyev 30, Seymur Rzayev isə 31 arı ailəsinə qulluq edir.

Şınıxda yaşayan Sakit Vəliyevin də 50 arı ailəsi var. O, hər il 600 kiloqramdan artıq bal istehsal edir. Qoşabulaq kəndinin sakini Hafiz Əhmədov da uzun illərdir ki, arıçılıqla məşğuldur. Arı ailəsini 60-a çatdıran təsərrüfat sahibi bu il 600 kiloqrama yaxın bal götürəcəyinə əmindir. Rayon arıçılarından Oruc Rzayev, Elmar Əsgərov, Zahir Alıyev, Bayram Əsgərov və başqaları da hər il bal istehsalında fərqlənirlər. Onlar keçən il Bakıda təşkil olunan bal yarmarkasında 1500 kiloqramdan çox süzmə bal, 5 kiloqramdan çox vərəm mumu, 7 kiloqrama yaxın çiçək tozu satmışlar.

Ümumiyyətlə, Gədəbəy tarixən arıçılığın inkişaf etdiyi rayonlardan olub. Burada arıçılıq çox qədim tarixə malikdir. Təsadüfi deyil ki, bir çox kəndlərin adı arıçılıqla bağlıdır. Arıqıran, Arısu və s. kəndləri buna misal ola bilər.

Onu da qeyd edək ki, adlarını çəkdiyimiz kəndlər həm də turistlərin maraq dairəsindədir. Yay aylarında bu kəndlərdə dincələn turistlər evlərinə dönərkən bal da alırlar. Onlar yerli təsərrüfatlarda balın süzülməsini öz gözləri ilə görür və bu prosesdə hətta iştirak edə bilirlər. Bu isə o deməkdir ki, hər bir turistdə balın təmizliyinə şübhə qalmır.

Bu il Gədəbəydə təbiət arıçıların üzünə gülür. İndi dağ və yamaclarda şahtəpə, dağ şalfeyi, cökə, daş yarpızı, dağ laləsi və s. bitkilər olduqca çoxdur. Deməli, cari il rayonda bal bol olacaq. Bol məhsul isə həm də insanların güzəranının daha da yüksəlməsi deməkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## XXXII Tokio Yay Olimpiya Oyunları

# Turan Bayramov mübarizəni dayandırdı

Sərbəst güləş üzrə Azərbaycan yığması "Tokio-2020"də mübarizəyə qoşulub. 74 kq çəki dərəcəsində yarışa qoşulan Turan Bayramov Olimpiadaya uğurlu başlamışdı.



Gənc pəhləvanımız 1/8 finalda ukraynalı Vasil Mixaylovu üstələmişdi. Amma gənclər arasında Avropa və dünya çempionumuz uğurlu çıxışını davam etdirə bilməmişdir. O, 1/4 finalda İtaliya təmsilçisi Frank Çamizoya 1:3 hesabı ilə uduzmuşdur. Çamizo növbəti qarşılaşmasında uduzduğu üçün T.Bayramov bürünc medal şansını da itirmiş və Olimpiada ilə vidalaşmışdır.

# Karateçimiz qrupda qaldı



Yaponiya paytaxtına 3 idmançı ilə yollanan Azərbaycan karate yığması da mübarizəyə başlayıb.

İlk olaraq yarışa çıxan millimizin 67 kq çəki dərəcəsindəki idmançısı Firdovsi Fərzəliyev uğursuzluqla üzləşib. A qrupunda yarışa start verən idmançımız 4 qarşılaşmada yalnız bir qələbə qazanaraq qrupda qalıb.

O, ilk görüşdə Eray Şamdana (Türkiyə) 1:7 hesabı ilə uduzub. Karateçimiz yeganə qələbəsini ikinci qarşılaşmada qazanıb. O, Naoto Saqoya (Yaponiya) qalib gəlib - 1:0.

Ardınca qrupun lideri Darxan Assadılova (Qazaxıstan) 2:6 hesabı ilə uduzan təmsilçimiz yarımfinal şansını çətinə salıb. F.Fərzəliyev autsayder Əli Əlsavi (Misir) ilə görüşdə də 0:1 hesabı ilə uduzaraq qrupda 5-ci yeri tutub.

# Növbəti sensasiya

"Tokio-2020"də atletika yarışlarında kişilərin 4x100 m məsafəyə estafet qaçışı sensasiya ilə əlamətdar olub.

Bu növdə əbədi favorit olan ABŞ yığması finala yüksələ bilməyib. Olimpiadaya qatılan ilin ən sürətli üç sprinterinə malik şimali amerikalılar yarımfinalda mübarizəni dayandırıblar. ABŞ yığması öz qrupunda yalnız 6-cı yerlə kifayətlənib ki, bu da finala vəsiqə üçün yetərli olmayıb.

Bununla da amerikalıların 4x100 m estafetdəki uğursuz ənənəsi davam edib. Komanda 2000-ci ildən sonra çempionluq, 2004-cü ildən sonra isə medal həsrətindədir.

Baxmayaraq ki, indiyədək olimpiadalar çərçivəsində keçirilən 24 belə estafetin 15-də ABŞ qalib gəlib. Onlar ilk 20 belə yarışın 15-də çempion olduqdan sonra 4 son yarışda müxtəlif xoşagəlməzliklərlə üzləşiblər. Zolağı səhv salmaqdan tutmuş estafetin ötürülməsindəki xətalarla üzləşən yığma bu dəfə də uğursuzluq yaşayıb.







# Talaxadze dünya rekorduna imza atdı

Gürcüstan ağırlıqqaldıranı Laşa Talaxadze "Tokio-2020"də dünya rekordu müəyyənləşdirib.

109 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən atlet 488 kiloqram nəticə ilə bütün rəqiblərini qabaqlayaraq və Olimpiya çempionu olub. İran təmsilçisi Əli Davudi yarışı ikinci, suriyalı Man Asaad isə üçüncü pillədə başa vurub.

Qeyd edək ki, Gürcüstan indiyədək 2 qızıl, 4 gümüş və 1 bürünc medalla ölkələrin sıralamasında 23-cü pillədə qərarlaşıb.

# Yarışda qəza baş verdi

Yay Olimpiya Oyunlarında trek velosipedi üzrə yarışda qəza baş verib.

Niderland velosipedçisi Lorin van Rissen 1/4 final mərhələsi zamanı Böyük Britaniya təmsilçisi Keti Marçantla toqquşub. Nəticədə van Rissen treki xərəkdə tərk etməli olub. Marçant isə toqquşmaya baxmayaraq, finişə 5-ci çata bilib.




# Koronavirusa yoluxma üzrə sutkalıq antirekord qeydə alınıb

Olimpiya Oyunları ilə əlaqəli şəxslər arasında koronavirusa yoluxma üzrə sutkalıq antirekord müəyyən olunub. Təşkilat komitəsindən verilən məlumata görə, son sutka ərzində daha 31 nəfərdə yoluxma aşkar edilib.



Bildirilir ki, yoluxanlardan biri Yunanıstanın sinxron üzgüçülük üzrə komandasının üzvüdür. Bununla, həmin komandada yoluxanların ümumi sayı 6 nəfərə çatıb.

Xatırladaq ki, bir gün əvvəl Olimpiadada 29 nəfər koronavirusa yoluxmuşdu. Bu, yarışların son həftəsində yoluxanlar barədə orta göstəricidən təqribən 10 nəfər çoxdur.

Oyunlarla əlaqədar şəxslər arasında koronavirusa yoluxanların ümumi sayına gəlincə isə, bu göstərici 353 nəfərə çatıb. Həmçinin hesabatda bildirilir ki, iyulun 1-dən Olimpiadaya hazırlıq və yarışların keçirildiyi günlər ərzində 543 min koronavirus testi götürülüb.

Qeyd edək ki, Tokioda epidemioloji vəziyyət ağır olduğuna görə hökumət fövqəladə vəziyyət rejiminin müddətini avqustun 31-dək uzadıb. Tamaşaçılar məhz buna görə Olimpiya Oyunlarına buraxılmırlar.

## Beynəlxalq aləm

# Əfqanıstanda qarşıdurmanın sonu görünmür

Əfqanıstandan məyusedici xəbərlər daxil olmaqda davam edir. Ölkənin bir çox əyalətlərində hökumət qüvvələri ilə taliblər arasında qanlı toqquşmalar səngimək bilmir. Bu səbəbdən son 3 ay ərzində 1 milyona yaxın əfqanıstanlı öz evlərini tərk etmək məcburiyyətində qalmışdır.

Müstəqil insan hüquqları komissiyasının məlumatına görə, məcburi köçkünlərin ən böyük axını Əfqanıstanın şərqində yerləşən Nənqərhar vilayətindəndir. Ev-eşiklərini tərk etmiş sakinlərin təxminən 10 faizi açıq səma altında yaşayır. Rəsmi Kabil məcburi köçkünlərə yardım etməkdə çətinlik çəkir. Humanitar vəziyyət pisləşir. Bunun qarşısını almaq üçün hökumət qüvvələri və "Taliban" dərhal hərbi əməliyyatları dayandırmalı və atəşkəs rejiminə riayət etməlidir.

Son günlər məcburi köçkünlərin fəal axını həm də taliblərin ələ keçirmək istədikləri İranla sərhəddə yerləşən Herat şəhəri rayonundan qeydə alınır. Ölkənin cənubunda yerləşən Gilmənd əyalətinin inzibati mərkəzi Ləşkərgah şəhərində atışma episentrinə düşməmək üçün yüzlərlə ailə isə evlərindən çıxa bilmir. BMT-nin Əfqanıstana kömək üzrə missiyası (UNAMA) Gilmənddə döyüş əməliyyatları zamanı 40 dinc sakinin həlak olduğunu bildirmişdir. Daha 118 dinc vətəndaş xəsarət almışdır. Bildirilir ki, tərəflər dinc sakinlərin həyatını müdafiə etməsə, bu, böyük faciəyə gətirib çıxaracaq.



Artıq bir həftədir Qəndəharda, Gilmənddə və Heratda qanlı toqquşmalar davam edir. Taliblər adıçəkilən əyalətlərin qubernatorlarının administrasiya binalarının bir neçə metrliyində olduqlarını bəyan edirlər. Böyük itkilər vermələrinə baxmayaraq, onlar geri çəkilmirlər.

Hazırda taliblər taktiki olaraq Özbəkistan və Tacikistanla sərhədə tam nəzarət edirlər. Özbəkistana əsas ticarət marşrutunun üstündə yerləşən "Xeyratan" nəzarət-keçid məntəqəsi iki tərəfdən taliblərin mühasirəsindədir. Onlar həmçinin Əfqanıstanın cənub-qərbində yerləşən Qəzni əyalətində də hücumlar edirlər.

Taliblər terror aktlarından da əl çəkmirlər. Son məlumata görə, Kabildə Şir Pur rayonunda Əfqanıstanın müdafiə naziri Bismillah Məhəmmədinin evinin yaxınlığında törədilmiş partlayış nəticəsində 8 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Bu barədə jurnalistlərə xəbər verən Daxili İşlər Nazirliyinin mətbuat katibi Mirveys Stanekzayın dediyinə görə, terrorçulardan biri nazirin evi yaxınlığında minalanmış avtomobili partlatmışdır. Bundan sonra digər 4 terrorçu yaxınlıqdakı başqa evə soxularaq atəş açmağa başlamışdır. Gecə saatlarında hücum edənlər zərərsizləşdirilmişdir. Nazir və onun ailəsi zərər çəkməmişlər. Hadisə rayonundan onlarla mülki şəxs təxliyə edilmişdir. O da bildirilir ki, terror zamanı Məhəmmədinin evində digər əyalətlərdən bir neçə yüksəkvəzifəli məmur olmuşdur.

Beləliklə, Əfqanıstanda qanlı qarşıdurma davam edir və təəssüf ki, bunun sonu görünmür.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Türkiyədə ilk yük PUA-sı sınaqdan keçirilib

Türkiyədə yerli istehsal olan ilk yük pilotsuz uçuş aparatının (PUA) sınaqları keçirilib. Bu barədə "Trend" agentliyi xəbər veir.

Məlumata görə, "Kargo-150" çoxpərli PUA 50 dəqiqə müddətində 150 kiloqramadək yük daşımaq gücündədir.

PUA "Aselsan" və "Altınay Savunma" şirkətləri tərəfindən istehsal olunub. "Kargo-150" 40 kilometr məsafəyə yükü çatdırıb geri dönə bilir. Qeyd olunur ki, "Kargo-150"nin yüklə birgə ağırlığı 730 kiloqrama çatır. Aparatın uçuş sürəti saatda 100 kilometrdir.

PUA əsasən hərbi yüklərin, silah-sursat, eləcə də yanacağın hərbçilərə çatdırılması üçün nəzərdə tutulur.



# İranda 5 ticarət gəmisi yanıb



İranın cənubunda yerləşən Buşəhr vilayətinin Gənavə limanında 5 kiçik ticarət gəmisi yanıb. Bu barədə Gənavə rayonu qubernatoru Qulamrza Mehrcuyə istinadən "Trend" agentliyi xəbər verir.

Q.Mehrcunun dediyinə görə, hadisə nəticəsində məhsulla dolu 4 və 1 boş gəmi tamamilə yanıb.

Yanğının digər gəmilərə keçməsinin qarşısı alınıb. Faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, adıçəkilən limana mindən çox yük gəmisi yan alır.

# Texasda dəhşətli qəzada miqrantlar həlak olub

ABŞ-ın Texas ştatında miqrantları daşıyan avtomobil qəzaya uğrayıb. Bu barədə NBC telekanalı xəbər verir.

Məlumata görə, Bruks dairəsi yaxınlığında baş vermiş qəza nəticəsində 11 nəfər həlak olub, 12 nəfər xəsarət alıb. Bildirilir ki, dəhşətli qəzada xəsarət alanlar helikopterlər vasitəsilə xəstəxanalara çatdırılıb.

Qəzanın səbəbi araşdırılır.




# Banqladeşdə ildırım toyu yasa döndərdi



Banqladeşdə ildırım vurması nəticəsində toy mərasiminin azı 17 iştirakçısı həlak olmuşdur. Bu barədə "BBC News" telekanalı xəbər verir.

Məlumata görə, daha 14 nəfər, o cümlədən bəy yaralanmışdır. Hadisə zamanı qonaqlar qayıqla gəlinin evinə yollanırmış.

İnsident sahilyanı Şibqanc şəhərində baş vermişdir. Şahidlərin dediyinə görə, toy mərasimi iştirakçılarına bir neçə ildırım dəymişdir.

# Kemerköy İES-in ərazisində yanğın söndürülüb

Türkiyənin Milas rayonundakı Kemerköy İstilik Elektrik Stansiyası (İES) ərazisində 11 saatdan çox davam edən yanğın dünən səhər saatlarında səngiyib və sönüb. APA agentliyinin yerli bürosunun xəbərinə görə, bu barədə Türkiyənin NTV telekanalı məlumat verib.



Türkiyə rəsmisi Fəxrəddin Altun bildirib ki, yanğının ərazidə ölüm, yaralanma təhlükəsi və daha çox itki verilməməsi üçün Prezidentin təlimatı əsasında öncədən müvafiq tədbirlər görülüb. 3 nazirin nəzarətilə təhlükəsizlik tədbirləri davam edir.

Qeyd edək ki, İES-də təhlükənin qarşısının alınması üçün öncədən hidrogen tankerləri və kömür anbarları boşaldılmış, ərazidəki yaşayış yerlərindən 8 məhəllə təxliyə edilmişdir.

# COVID-19: Fransanın bəzi regionlarında "ağ plan"a başlanılıb

Fransa Regional Səhiyyə Agentliyi COVID-19 pandemiyasının yenidən baş qaldırması ilə xəstəxanaların təşkilatlanmasının möhkəmləndirilməsi məqsədilə Provans-Alpes-Cote-d'Azur (PACA) regionunda "ağ plan"ın (plan blanc) icrasına başladığını elan edib. Bu barədə AZƏRTAC xəbər verir.

Klinikalarda koronavirus xəstələrinin sayının həndəsi silsilə ilə artması xəstəxanaların növbəti mərhələ üçün hazır olması vacibliyini doğurub. Nis şəhər xəstəxanasının reanimasiya şöbəsinin rəhbəri Karol İçe klinikada koronavirus pasiyentlərinin artdığını bildirərək növbəti mərhələyə keçid üçün xəstəxanaların hazır olmasının vacibliyinə toxunub. O deyib ki, hazırda reanimasiya şöbəsində ağır xəstələrin sayı çox olduğundan xəstəxanaya pasiyent axını zamanı əsas vasitələrin tez və rasional tətbiqini planlaşdırmaq məqsədi ilə xüsusi təcili yardım və səhiyyə böhranı üçün hazırlanmış "ağ plan"ın icrasına başlanılıb. Virus sürətlə yayılır, xəstəxanada yeni çarpayılara, eləcə də kadrlara ehtiyac var. Növbəti mərhələyə keçmək üçün hazır olmaq lazımdır. "Ağ plan" işə qəbulu asanlaşdırmağa və bu strategiyanı başlamağa imkan verir. Xəstəxanadakı koronavirus pasiyentlərinin daha gənc yaş kateqoriyasını əhatə etdiyi diqqətə çatdırılıb. Yoluxmanın 20-40 yaş arasında daha çox yayıldığı və bu yaş kateqoriyasının peyvənd edilmədiyi bildirilib.

Xatırladaq ki, son günlər Fransada gündəlik yoluxma orta hesabla 21 mindən çox olur.



# "Azercell"in rəqəmsal xidmətləri indi daha çox istifadəçinin rahatlığını təmin edir







Ölkənin müştəri yönümlü lider şirkəti "Azercell Telekom" MMC rəqəmsal həllərdən istifadəni daha asan və rahat etmək məqsədilə "Kabinetim", "ABBMobile", "Umico" platformaları üzərindən xidmətlərin çeşidini genişləndirir.

İndi ABBMobile tətbiqinə "Azercell"in NNTV, Bookmate, BluTv, "IVI"rəqəmsal həlləriylə yanaşı, SberZvuk xidmətinə abunəlik də əlavə olunub. SberZvuk-la milyonlarla istifadəçinin istənilən əhvala, şəraitə və məkana uyğun musiqini tapmaq, dünya hitlərindən tutmuş klassikaya qədər müxtəlif növ musiqini dinləmək mümkündür. 50 milyon mahnı, podkast, fərdi tövsiyə və musiqini özündə cəmləşdirən rəqəmsal məhsulun ağıllı alqoritmləri seçiminizi sizin üçün avtomatik olaraq fərdiləşdirir.

Yayın əvvəlində SberZvuk xidmətinə Hi-Fi musiqisi üçün dəstəyin əlavə olunması nəticəsində indi milyonlarla mahnı istifadəçilər üçün itkisiz (lossless) - sıxlaşdırma və təhrif olmadan təqdim olunur. Bu yeniliklər əlavə ödəniş tələb etmədən standart abunə paketinə daxildir. Qeyd edək ki, Hi-Fi keyfiyyəti musiqini yaradıcıları tərəfindən ilk düşünüldüyü və yazıldığı şəkildə dinləməyə imkan verir. Bu funksiya iOS və Android əməliyyat sistemini dəstəkləyən bütün mobil cihazlarda istifadə oluna bilər. Bunun üçün SberZvuk tətbiqində Hi-Fi işarəsi olan istənilən kompozisiyanı seçmək və ya pleyerdə, istifadəçi profilində Hi-Fi keyfiyyətinə keçid etmək kifayətdir. Eyni zamanda trekləri keyfiyyətini itirmədən onlayn şəkildə dinləmək və ya mobil cihazın yaddaşına yükləmək də mümkündür.

Həmçinin ABBMobile-də təqdim olunan BluTV mobil kinoteatrına Discovery+ striminq xidməti əlavə edilib. Yeni proqram sayəsində bu kanalın sənədli və əyləncəli kitabxanasına üzv olmaq mümkündür. Bu paketdə Discovery Channel, TLC, Animal Planet, ID, Discovery Science, Food Network, Travel Channel, həmçinin Eurosport kimi populyar kanalların təqdim etdiyi ən məşhur şoular, seriallar, idmançılar haqqında proqramlar təqdim olunur.

Xatırladaq ki, bu və digər "Azercell" rəqəmsal məhsulları artıq "Umico" platformasına da əlavə olunub və xidmətlərə qoşulma qaydası çox sadədir: "Umico" tətbiqini "App Store" və ya "Play Store"dan yüklədikdən sonra "Umico"da "Bonuslar" səhifəsinə keçid edib "Azercell - Keşbekli xidmətlər" bölümü seçilməlidir.

"Azercell"in rəqəmsal məhsullar portfeli ilə tanış olmaq üçün **https://www.azercell.com/az/personal/digital-solutions.html** səhifəsinə keçid etməyiniz xahiş olunur.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

OXUCULARIN NƏZƏRİNƏ!
"AZƏRBAYCAN"
qəzetinə 2021-ci il üçün
abunə yazılışı kampaniyası davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 29 aprel və 10 iyun 2021-ci il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyli küçəsi, 134 saylı ünvanda yerləşən Dövlət Turizm Agentliyinin inzibati binasının xarici elektrik təchizatı işlərinin satınalınması ilə əlaqədar dərc edilmiş elektron açıq tenderdə "Tələt" firması qalib elan olunmuşdur.

Həmin şirkətlə 2021-ci il avqustun 5-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 22.06.2021-ci il və 08.07.2021-ci il tarixli saylarında Azərbaycan Respublikası Mərkəzi Bankının "Banklararası Kart Mərkəzi"nin "Ödəniş kartı sahəsində məlumat təhlükəsizliyi standartları"nın (PCI DSS) tələblərinə uyğunluğu və PCI DSS sertifikatının alınması və SWIFT üzrə lokal infrastrukturun SWIFT cəmiyyətinin "İstifadəçi təhlükəsizliyinə nəzarət konsepsiyası"nın (CSCF) tələblərinə uyğunluğu üzrə auditin həyata keçirilməsi üzrə elan edilmiş açıq tender Tender komissiyasının 02.08.2021-ci il tarixli qərarına əsasən, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 07 may 2021-ci il tarixdə **www.etender.gov.az** portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Əmtəələrin qablaşdırılması üçün plastik məmulatların istehsalı layihəsi üzrə daxili bazar araşdırması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" ilə bağlı keçirilmiş açıq tenderdə "Real Prays" MMC qalib şirkət elan olunmuşdur.

Həmin MMC ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 23.06.2021-ci il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ mebel, mebel məmulatlarının və aksesuarlarının açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "İDEAL OFFİCE" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 02.08.2021-ci il tarixdə ƏDV daxil 178 158,76 (yüz yetmiş səkkiz min yüz əlli səkkiz manat 76 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 02.07.2021-ci il tarixdə keçirilmiş işarəvermə və rabitə üçün avadanlıqların, ehtiyat hissələrinin, aksesuarların və mal materialların açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Best Telekom" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 02.08.2021-ci il tarixdə ƏDV daxil 3543312,14 (üç milyon beş yüz qırx üç min üç yüz on iki manat 14 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 23.06.2021-ci il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC-nin stansiyaları, binaları, qurğuları və avadanlıqlarının təmizlənməsi işlərinin Təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "TAİS İKF" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 3342915,47 (üç milyon üç yüz qırx iki min doqquz yüz on beş manat 47 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 30.08.2021-ci il saat 16:00-dək tender təklifi və tender təklifinin bank təminatını 07.09.2021-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 08.09.2021-ci il saat 16.00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2021-ci il üçün *kotirovka sorğusu elan edir*

Ofis şüşələrin (pəncərələr, fasad hissəsi) yuyulması xidmətinin satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 19 avqust 2021-ci il saat 17:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
2. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir; **01.07.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);**
3. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
4. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir; **01.07.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);**
5. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);
6. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;
7. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;
8. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;
10. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.
11. Fövqəladə Hallar Nazirliyi tərəfindən təqdim edilmiş "Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları" barədə "Attestasiya komissiyasının qərarı".
12. Qaldırıcı səbət operatorunun proqram üzrə təlim kursunu bitirməsi barədə sertifikat.

**Ünvan: AZ1100 Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27.**
**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə. Telefon: (+99451) 207-59-12.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi-şöbə müdiri Natiq Əmirova əzizi

**SƏYALI İSLAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi-şöbə müdiri Natiq Əmirova əzizi

**SƏYALI İSLAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baba Rzayev Natiq Əmirova əzizi

**SƏYALI İSLAMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva və kollecin kollektivi Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Nigar Əliyevaya atası

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4853
Sifariş 1393
Qiyməti 40 qəpik